QARABAĞ AZƏRBAYCANDIR!

## Heydər Əliyev Fondu uşaqlar üçün bayram şənliyi təşkil edib



5



SƏS
№ 241 (6682) 30 dekabr 2022-ci il. Qiyməti 60 qəpik

## Bölgələrdə turizmin inkişafı baxımından növbəti mühüm addım



2

# Avropa Parlamentində korrupsiya işi - erməni izində yeni təfərrüatlar!

## Daha iki ölkənin adı çəkilir: yaxınlarda açıqlanacaq



13

## 10 il "ASAN" həyat...



8

## "Belə təlimlərin keçirilməsi davamlı xarakter daşıyacaq"




7

## Dmitri Solonnikov: "Ermənistan Qərbin tapşırığı ilə sülh razılaşmasını pozur"



10

## Şəfa əvəzinə bəla



15

## Ronaldo villasına işçilər axtarır - ayda 6 min avro maaş...



16

# Bölgələrdə turizmin inkişafı baxımından növbəti mühüm addım

**Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şabran rayonunda "Şabran" İstirahət Kompleksinin açılışında iştirak ediblər.**

Belə ki, dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri kompleksdə yaradılan şəraitlə tanış oldular. Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma oteldə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Şabran rayonunun Pirəbədil kəndində yerləşən kompleks paytaxt Bakıdan 147 kilometrlik məsafədədir. Kompleksin ərazisində 12,6 hektar sahədə inşa olunan otel müxtəlif kateqoriyalı 119 nömrədən, birmərtəbəli 10, ikimərtəbəli 20 kottecdən ibarətdir.

Kompleks Azərbaycanda Hindistanın qədim təbabət sistemi - Ayurveda ilə müalicə metodlarını tətbiq edən ilk istirahət mərkəzidir. Burada peşəkar Pançakarma (toksinlərdən azadolma) mütəxəssisləri tərəfindən Hindistan ənənələri əsasında xüsusi orijinal terapiya metodları təklif edilir.

"Ayurveda Spa" mərkəzində gözəllik salonu, 6 prosedur otağı, fin saunası, buxar otağı, istirahət zonası və qapalı hovuz vardır.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Şabran" İstirahət Kompleksinin açılışında iştirak ediblər









Burada, həmçinin fitnes və yoqa ilə məşğul olmaq üçün hər bir şərait yaradılıb. Mərkəzdə şəfalı Pançakarma prosedurları, Pranayama seansları, yoqa və həyat tərzi üzrə təlimlər təşkil olunacaq.

Eyni zamanda, kompleksdə "Rübai", "Ahəng", "Ocaq" restoranları, "Misra Lobby Lounge", "Badə Lounge Bar", "Aura Cafe", müxtəlif əyləncə və oyun otaqları fəaliyyət göstərəcək. Oteldə işgüzar görüşlər, konfranslar və xüsusi tədbirlər üçün 180 nəfərlik "Bayatı" və "Şiraz" konfrans zalları yaradılıb. Həm də yaradıcılıq mərkəzi kimi xidmət göstərəcək kompleksdə bəstəkarlar, yazıçılar və rəssamlar üçün kotteclər də nəzərdə tutulub.





Qeyd edək ki, Şabran rayonu turizm marşrutları üzrə mühüm istiqamətlərdən biri olmaq potensialına malikdir. Odur ki, artan tələbata uyğun olaraq rayon ərazisində infrastrukturun formalaşdırılması əsas vəzifələrdən biridir. Prezident İlham Əliyevin istifadəyə verilən yeni istirahət kompleksi ilə tanış olması dövlətimizin bu məsələyə həssas münasibətini nümayiş etdirir. Beləliklə, bu kompleksin istifadəyə verilməsi bölgələrdə turizm infrastrukturunun və xidmət səviyyəsinin yaxşılaşdırılması baxımından növbəti mühüm addımdır.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin demarkasiyası üzrə Dövlət Komissiyası haqqında" 2002-ci il 30 iyun tarixli 965 nömrəli, "Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət Komissiyası haqqında" 2002-ci il 30 iyun tarixli 966 nömrəli və "Yerli icra hakimiyyəti orqanlarının nəzdində olan bağ təsərrüfatı idarələrinin ləğv edilməsi barədə" 2007-ci il 22 may 2186 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Balaxanı Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında" 2018-ci il 1 mart tarixli 3736 nömrəli, "Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında" 2018-ci il 6 iyul tarixli 293 nömrəli, "Mingəçevir Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında" 2018-ci il 30 iyul tarixli 366 nömrəli, "BMT-nin insan hüquqları mexanizmləri üzrə qurumları ilə əməkdaşlığın səmərəliliyinin artırılması haqqında" 2018-ci il 20 sentyabr tarixli 504 nömrəli, "Azərbaycan Respublikasında peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair 2019-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli 696 nömrəli və "Tarix-mədəniyyət qoruqlarının yaradılması haqqında" 2019-cu il 22 oktyabr tarixli 1498 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

# 2023-dən geriyə baxarkən

## İLHAM ƏLİYEV: "Bu il əldə edilən həm hərbi, həm siyasi uğurlarımız da gələcək üçün zəmin yaradır"



Bəli, 2022-ci ilin qarşıdan gələn yeni 2023-cü ilə təhvil verməsinə sayılı günlər qalıb. Bu bir real faktdır ki, hər il başa çatarkən növbəti ilə hansı uğurlarla qədəm qoyuruq sualını qarşıya qoyuruq və bu sualı cavablandırmaq üçün ölkəmizin ictimai-siyasi, iqtisadi, sosial, mədəni, demokratik islahatlar və xarici siyasət sahəsində qazandığı uğurları bir daha təhlil etmək zərurəti duyulur. Və xalqımız Azərbaycanın tarixinə uğurlu və Qələbə Zəfərli illər kimi daxil olan 2020, 2021 və 2022-ci illər kimi 2023-cü ilin də böyük sevinc və qələbələr ili kimi ilk gündən xeyirli, bərəkətli, işğal olunmuş torpaqlarımızda - Qarabağımızın cənnət məkanına çevriləcəyinə böyük ümüdlə inanır. Bu gəlişi gözəl söz deyil, real faktlara əsaslanan nəticələrdir. Çünki əsl siyasət konkret, real iş görməkdən ibarətdir. Son 19 il ərzində Azərbaycan Prezidenti İlham Əliyevin qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar və ən əsası isə 2020-ci ildə tariximizə qızıl hərflərlə yazılan 44 günlük Vətən Müharibəsi Ali Baş Komandanımızın uğurlu ”Dəmir yumruq” əməliyyatı ilə bütün dünyaya həm də bacarıqlı, qətiyyətli Sərkərdə olduğunu, xalq-ordu-dövlət birliyinin isbatladı.Bəli, Azərbaycan əvvəlki illərdə olduğu kimi, 2022-ci ili - ”Şuşa İli”ni də uğurla, yüksəlişlə, həmrəyliklə, quruculuqla başa vurdu. qədəm qoydu. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycan İcmasının bir qrup üzvüləri ilə





görüşü zamanı bu ilin də bir çox önəmli hadisələrlə yadda qalacağını və növbəti ilin də uğurlu olacağının söyləyib: ”Bu il başa çatır. İl ərzində bir çox önəmli hadisələr baş vermişdir. Biz Azərbaycan-Ermənistan sərhədində məcburən hərbi əməliyyat keçirməli olduq. Bu hərbi əməliyyat nəticəsində bizim tarixi şəhərlərimiz bu gün artıq vizual müşahidə yolu ilə gözümüzün önündədir”.

Dövlət başçısı onu da bildirib ki, Qarabağın, Şərqi Zəngəzurun döyüş meydanında azad edilməsi tarixi hadisədir və Azərbaycan durduqca Azərbaycan tarixində qalacaq: ”Bu il əldə edilən həm hərbi, həm siyasi uğurlarımız da gələcək üçün zəmin yaradır. Həm qayıdış üçün, həm təhlükəsizlik üçün, həm Azərbaycanı güclü dövlət kimi qəbul etmək istəməyənlər üçün də bir dərs oldu və bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz”.

Dövlət başçısı bu gün Laçın yolunda baş verən hadisələrlə bağlı bildirdi ki, burada təkcə Ermənistan yox, bəlkə də onlardan daha çox onların xaricdəki havadarları, onların arxasında dayanan dövlətlər yenə də Azərbaycana qarşı qarayaxma kampaniyasıdır: ”Bizim təbii sərvətlərimiz istismar edilir, təbii sərvətlər daşınır. O təbii sərvətlərimizi istismar edənlər istənilən beynəlxalq hüquqi normaya görə cinayətkardırlar. Çünki bu, bizim beynəlxalq birlik tərəfindən tanınmış ərazimizdir və haqlı tələbimiz var ki, bizim ictimaiyyət nümayəndələri və ilk növbədə, ondan əvvəl dövlət qurumlarının nümayəndələri monitorinq keçirməlidirlər Amma bu, bizi heç nədən çəkindirməyəcək. Biz artıq bunu dəfələrlə sübut etmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, müharibədən keçən iki il bunu göstərdi. Heç kim bizə təsir göstərə bilməz. Zənglər ola bilər, hansısa bəyanatlar ola bilər, onlara əhəmiyyət vermək lazım deyil. Sadəcə olaraq, siyasi nəzakət naminə biz bu zənglərə cavab veririk. Ancaq bu, bizim mövqeyimizi zərrə qədər dəyişməyəcək”.

### 2022-Cİ İLİN İLK GÜNÜ - ”ŞUŞASIZ QARABAĞ, QARABAĞSIZ İSƏ,ÜMUMİYYƏTLƏ, AZƏRBAYCAN YOXDUR”

Bu tarixi xəbər həm Azərbaycanda, həm də ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımız tərəfindən minnətdarlıq və məmnunluqla qarşılandı. Səbəbi isə bəllidir. Şuşa mədəniyyətimizin paytaxtı, qədim Azərbaycan torpağıdır. İllər öncə Ulu Öndər Heydər Əliyev Qarabağın tacı olan Şuşa şəhərinin hər bir azərbaycanlı üçün dəyərini qiymətləndirərkən demişdir ki, ”Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur”. Bu, Şuşanın bizim üçün nə dərəcədə dəyərli olduğunun böyük ifadəsi idi.28 illik həsrətdən sonra Şuşa azadlığına qovuşanda isə Xilaskar İlham Əliyev Şuşanı belə dəyərləndirdi: ”Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir”.Prezidentin imzaladığı sərəncamda qeyd edilir ki, Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilib. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət alıb, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. Bu gün isə Şuşa yenidən qurulur, özü də daha möhtəşəm, daha əzəmətli. Bu gün qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzeyməqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Və bu gün Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa məscidlərinin minarələrindən səslənən azan səsi Şuşanı azadlığına qovuşduran şəhidlərimizin ölməz ruhunu şad edəcək.

### DÖVLƏT BAŞÇISI: ”ƏMİNƏM Kİ, 2022-Cİ İL DƏ UĞURLU OLACAQ”

Prezident İlham Əliyev 2021-ci il 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə Azərbaycan xalqına müraciətində deyib: ”Əminəm ki, 2022-ci il də uğurlu olacaq. Çünki ölkədə mövcud olan birlik, həmrəylik və gözəl ab-hava bu reallığı bizə təmin edəcək. Mən isə Prezident kimi, Ali Baş Komandan kimi hər zaman Azərbaycanın maraqlarının keşiyində duracağam, ölkəmizin hərtərəfli inkişafı, hərbi gücünün artırılması, vətəndaşların daha yaxşı yaşaması üçün əlimdən gələni əsirgəməyəcəyəm”.

Bəli, hər ili uğurlu olan və hər sözü əməli ilə üst-üstə düşən, sözü imzası qədər dəyərli, qüvvətli olan Prezident İlham Əliyevin son 19 illik prezidentlik fəaliyyətinin fəlsəfəsi ancaq və ancaq xalqına və dövlətinə layiqincə xidmət etmək. Və bu günkü uğurlar deyilənləri göstəricisidir. Belə ki, 2022-ci il üçün dövlət büdcəsinin gəlirləri 26 milyard 816 milyon manat, xərcləri isə 29 milyard 879 milyon manat proqnozlaşdırılması Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin düzgünlüyünü, aparılan islahatların uğurlu nəticələr verdiyini göstərir.

### BÖYÜK QAYIDIŞIN STRATEJİ İSTİQAMƏTLƏRİ: ”AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNƏ BÖYÜK QAYIDIŞA DAİR I DÖVLƏT PROQRAMMI”

Ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək, ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, əhalinin məşğulluq imkanlarını artırmaq, dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək və s. məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyev ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət proqramı”nın təsdiq edilməsi haqqında Sərəncamı ”Qarabağa qayıdış” layihəsini sürətlə reallaşdıracaq. Belə ki, Ali Baş Komandan İlham Əliyevin Ağalı kəndində və Cəbrayılda verdikləri açıqlamalar bunu bir daha sübut edir: ”Əlbəttə, mən deyirdim ki, biz mütləq qayıdacağıq. Deyirdim ki, öz torpaqlarımıza qayıdacağıq və qayıtdıq. İndi burada yaşayırıq. Sizin də qayıdışınız bunu göstərir ki, keçmiş köçkünlərin hamısı öz doğma torpaqlarına qayıdacaq. Çünki bəziləri hesab edirdilər ki, indi 30 il keçib, heç kim qayıtmaz. Amma baxın, görün, siz də qayıtmısınız”.

Ardı Səh. 4

# 2023-dən geriyə baxarkən

## İLHAM ƏLİYEV: "Bu il əldə edilən həm hərbi, həm siyasi uğurlarımız da gələcək üçün zəmin yaradır"



Əvvəli Səh. 3

Bəli, Dövlət Proqramının əhatə dairəsini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilər təşkil edir. Eləcə də işğaldan azad olunmuş ərazilərin bərpası və dayanıqlı inkişafı istiqamətində Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək tədbirlərin məqsədləri müəyyənləşdirilərkən Birləşmiş Millətlər Təşkilatının və digər beynəlxalq qurumların irəli sürdükləri qlobal inkişaf prioritetləri nəzərə alınıb. Dövlət Proqramı çərçivəsində qarşıya qoyulan prioritetlər "universallıq", "inteqrasiyalı yanaşma" və "heç kimin geridə qalmaması" kimi prinsiplərə əsaslanan Dayanıqlı İnkişaf Məqsədlərinə və onların müvafiq hədəflərinə uyğunlaşdırılıb. Bir, sözlə, Böyük qayıdışa dair I Dövlət Proqramı Qarabağ və Şərqi Zəngəzurun bərpasını sürətləndirəcək.

### ƏHALİNİN ETİBARLI, KEYFİYYƏTLİ VƏ DAYANIQLI İNFRASTRUKTURLA TƏMİNATI

Əlbəttə ki, infrastruktur layihələrin həmin ərazilərdə həyata keçirilməsi xüsusi önəm daşıyır. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı inkişafının və əhalinin yüksək həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması istiqamətində ardıcıl tədbirlər görülər. Məlumdur ki, Azərbaycan Zəfər qazandıqdan sonra işğaldan azad edilmiş ərazilərdə hava limanları ilə yanaşı, avtomobil və dəmir yollarının tikintisi işlərinə başlanıldı. İşğaldan azad olunan müxtəlif yaşayış məntəqələri arasında, eləcə də bu məntəqələri ölkənin digər şəhər və rayonları ilə birləşdirən nəqliyyat infrastrukturu formalaşdırılmağa başlanıldı. Enerji infrastrukturunun qurulması və regionun enerji, o cümlədən bərpa olunan enerji potensialından səmərəli istifadə çərçivəsində əhalinin infrastruktur təminatının yaxşılaşdırılması və lazımı həyat şəraitinin yaradılması üçün elektrik, su, qaz, istilik təchizatı və kanalizasiya xidmətlərinin qurulması istiqamətində sistemli tədbirlər həyata keçirilir. Eyni zamanda, ərazilərdə zəruri rabitə infrastrukturu qurulmaqla bu sahədə xidmətlər və mobil rabitə, radio-televiziya yayımı, xüsusi radiorabitə, internet, poçt və s. təşkil edilmişdir. Dövlət Proqramında nəzərdə tutulan hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək ərazilərdə görüləcək işlər əhalinin təhlükəsizliyin təmin olunmasına, eləcə də etibarlı, keyfiyyətli və dayanıqlı infrastrukturla təminatın həyata keçirilməsinə su, qaz, elektrik, istilik və s. infrastrukturun yenidən qurulmasına və s. yönəldilib. Təhsil, səhiyyə və sosial xidmətlərin qabaqcıl standartlara uyğun təmin olunması, bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, "Ağıllı şəhər", "Ağıllı kənd" və "Yaşıl enerji zonası" konsepsiyalarının tətbiqi müəyyənləşdirilmiş hədəflər sırasındadır. "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları əsasında yeni müasir şəhərlərin və kəndlərin salınması ilə əhalinin layiqli həyat şəraitini təmin edəcəkdir. Bütün görüləcək işlərin əsasında işğaldan azad olunan ərazilərimizi qısa bir zamanda müasir və inkişaf etmiş bir məkana çevriləcəkdir

### 2022-Cİ İL - QARABAĞDA İNKİŞAFIN AZƏRBAYCAN NÜMUNƏSİ

Bəli, geridə qoyduğumuz 2022-ci il Azərbaycanda da bir sıra siyasi-iqtisadi hadisələrlə yadda qaldı. İlk öncə Azərbaycanla Ermənistan arasında münasibətlərinin normallaşdırılması üzrə beynəlxalq səviyyədə keçirilən bütün görüşlər ilin vacib siyasi hadisələri kimi tarixə düşdü. Bundan başqa "Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" nun, Buxarestdə " Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökümətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanmasını ilin ən yadda qalan hadisələri kimi qiymətləndirmək olar.

### 2022-Cİ İLİN ƏN ƏSAS YADDA QALAN TARİXİ HADİSƏ: AZƏRBAYCAN ERMƏNİSTANA VƏ SÜLHMƏRAMLILARA DƏRS VERİR

Bəli, 2022-ci ilin ən yadda qalan hadisəsi Azərbaycanın mart ayında Xocalı rayonunun Fərrux yüksəkliyində antiteror əməliyyatı oldu. Avqust ayında isə Azərbaycan Ordusu Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinə qarşı antiterror əməliyyatı keçirdi. "Qisas" adlı cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürdü. Digər mühüm hadisələrdən biri Azərbaycan, Fransa, Ermənistan və Avropa İttifaqı Şurası liderlərinin Çexiyanın paytaxtı Praqada baş tutmuş görüşü idi. Həmin görüş İrəvanla Bakı arasında ehtimal edilən sülh müqaviləsinin imzalanması və Cənubi Qafqazda sülh və sabitliyin təmin olunması istiqamətində mühüm addım oldu. Bir çox ekspertin Praqada qəbul edilən bəyanatı Azərbaycanın növbəti diplomatik uğuru kimi qiymətləndirməsi əsassız deyildi. Belə ki, bəyanata əsasən, Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyü və suverenliyini tanıdı və bu xüsusda BMT Nizamnaməsi əsas sənəd kimi götürüldü. Bu, faktiki olaraq o deməkdir ki, Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu bir daha təsdiq edildi. Suverenliyi tanımaqla Ermənistan Azərbaycanın Qarabağ üzərində hakimiyyətini tanımış oldu.Doğrudur, 2022-ci ildə İrəvanın destruktiv siyasəti nəticəsində sülh müqaviləsi imzalanmadı. Amma bilməlidirlər ki, Azərbaycan hərbi və diplomatik səylər nəticəsində ərazi bütövlüyünü təmin etdiyi kimi, regionda sülh və sabitliyi formalaşdırmaq üçün qalib dövlət kimi Ermənistanla sülh müqaviləsini imzalamağa da nail ola biləcək.Bu il həm də Azərbaycan Ordusunun bölmələrinin Laçın şəhəri, Zabux və Sus kəndlərinə daxil olması (avqustun 26-da) ilə tarixə düşdü.

### ÜÇTƏRƏFLİ GÖRÜŞ - AZƏRBAYCAN, TÜRKİYƏ VƏ TÜRKMƏNİSTAN

Azərbaycan, Türkiyə və Türkmənistan dövlət başçılarının birinci üçtərəfli zirvə görüşü də yaddaqalan siyasi hadisələrdən idi. Türkmənistanda baş tutmuş görüşdə ticarət, enerji və nəqliyyat başda olmaqla dost və qardaş üç ölkə arasında əməkdaşlığın bütün sahələrdə daha da genişləndirilməsinə dair atılacaq addımlar müzakirə olundu. Görüşdən sonra sözügedən sahələrdə əməkdaşlığı gücləndirəcək sənədlər imzalandı. Nəticədə həm ikitərəfli və çoxtərəfli əlaqələrin, həm də Türk Dövlətləri Təşkilatı (TDT) daxilində əməkdaşlığın inkişafı istiqamətində daha bir addım atıldı. Əvvəlki illərdə olduğu kimi, Azərbaycanla Türkiyə arasında birgə hərbi təlimlər bu il də davam etdi. Digəlki qardaş dövlət 20-yə yaxın birgə hərbi təlim keçirdi. Bunlardan biri də ilin sonuna yaxın, dekabrın ayında ölkəmizdə keçirilmiş "Qardaş yumruğu" təlimi idi ki, bu da həm dostlara, həm də düşmənlərə ciddi mesaj oldu.



### 2022-Cİ İLDƏ PREZİDENT "MEDİA HAQQINDA" QANUNU TƏSDİQLƏDİ VƏ QANUN BU İL QÜVVƏYƏ MİNDİ

Bəli, 2022-ci ildə Prezident "Media haqqında" qanunu təsdiqlədi və qanun bu il qüvvəyə mindi. Daha sonra Media Reyestri yaradıldı. Yazılı KİV-lər və jurnalistlər Media Reyestrində qeydiyyatdan keçməyə başladı.Bir sözlə, ötən bir il ərzində həm siyasi, həm də iqtisadi baxımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin apardığı düzgün siyasət bir daha onu göstərir ki, 2023-cü il Azərbaycanın yüksəlişində növbəti uğurlu dövr olacaq. Belə ki, "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi də göstərir ki, azad olunmuş ərazilərdə bərpa işləri növbəti ildə və vüsətlə davam edəcək. Və 2023-cü ildə işğaldan azad edilmiş ərazilərin bərpası üçün 3 milyard manat vəsait ayrılması nəzərdə tutulur. Bu da 2022-ci illə müqayisədə 330 milyon və 12,4 faiz çoxdur. Təbii ki, bu məbləğ yenidənqurma işlərinin kompleks şəkildə davam etdirilməsi, keçmiş məcburi köçkünlərin öz əzəli yurdlarına mərhələli şəkildə qayıtması və məskunlaşması, bunun üçün sosial-məişət, təhlükəsizlik və məşğulluq şəraitinin yaradılması məqsədilə tədbirlərin həyata keçirilməsi üçün güclü maliyyə təminatı yaradır. Onu da qeyd edək ki, cari ilin dövlət büdcəsində bəzi xərc istiqamətləri üzrə istifadə olunmamış vəsaitlərin də bu məqsədlərə səfərbər edilməsi nəzərə alınmaqla, 3 il ərzində, yəni 2021, 2022 və 2023-cü illərdə azad olunmuş ərazilərin bərpasına ümumilikdə 9,7 milyard manatdan artıq vəsait yönəldiləcək.

### QƏRBİ AZƏRBAYCANA QAYIDIŞIN SƏDASI: TARİXİ ƏDALƏT İKİNCİ DƏFƏ BƏRPA OLUNUR

Geridə qoduğumuz 2022-ci ilin ən yaddaqalan hadisələrindən biri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin doğum günündə - dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında səsləndirdiyi fikirlər oldu. Artıq elan edildi ki, dövlət başçısının Qərbi Azərbaycandan olan ziyalılarla görüşü zamanı irəli sürdüyü Qayıdış Konsepsiyası ilə bağlı Qərbi Azərbaycan İcmasında dərhal işə başlanılıb: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir" ifadəsi sayıla bilər. Məhz bu fikirlər Ermənistanda böyük narahatçılıq yaratmaqla yanaşı, azərbaycanlıların Qərbi Azərbaycan arzularının reallaşacağı günün heç də uzaqda olmadığını sübuta yetirdi".Bir sözlə, bütün bu görülən işlər onu deməyə əsas verir ki, xalqımızın rifahı daha da yaxşılaşacaq, ölkəmizin qüdrəti yüksələrək Qarabağımız daha yenidən dirçələcək! .Və ötən bir il ərzində həm siyasi, həm də iqtisadi baxımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin apardığı düzgün siyasət bir daha onu göstərir ki, "2023-cü il Heydər Əliyev ili" də Azərbaycanın yüksəlişində növbəti uğurlu dövr olacaq. Növbəti il üçün əsas maliyyə planı xalqımızın rifahının daha da yaxşılaşmasını və ölkəmizin qüdrətinin yüksəlməsini, Qarabağımızın yenidən dirçələcəyini və iqtisadi inkişafın davamlılığını təmin edəcək. Bir sözlə, bu gün böyük inam və qətiyyətlə ifadə edirik ki, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2023-cü ildə də yeni-yeni hədəflərə hesablanmış strategiyasına uyğun olaraq Azərbaycan inkişaf, tərəqqi yolunda daha da böyük addımlarla irəliləyəcək.

Qədəmlərin uğurlu olsun 2023-cü il!.

***RƏFİQƏ KAMALQIZI***

# Heydər Əliyev Fondu uşaqlar üçün bayram şənliyi təşkil edib





**Heydər Əliyev Fondu Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə dekabrın 29-da "Gülüstan" sarayında xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün şənlik təşkil edib. Ənənəvi olaraq keçirilən şənlikdə Vətən müharibəsi şəhidlərinin övladları, müxtəlif uşaq evlərində və internat məktəblərində tərbiyə alan, sağlamlıq imkanları məhdud, həmçinin xüsusi qayğıya ehtiyacı olan uşaqlar iştirak ediblər.**



Həmişə olduğu kimi, bu dəfə də uşaqlar şənliyin keçirildiyi məkana onlar üçün ayrılmış avtobuslarla gəliblər. "Gülüstan" sarayı uşaqları sevindirmək üçün bayram əhval-ruhiyyəsində, nağıllar aləmini xatırladan dizaynla tərtib olunmuşdu. Uşaqları sarayda nağıl qəhrəmanları qarşılayıblar. Onlar "Face-art" vasitəsilə özləri də istənilən möcüzə qəhrəmanını canlandırmaq imkanı əldə ediblər.

Bayram şənliyi Azərbaycan xalqının





Ümummilli Lideri Heydər Əliyevin uşaqlara qayğısından, müxtəlif illərdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarında uşaqlarla bir yerdə olmasından bəhs edən videoçarxın nümayişi ilə başlayıb.

Sonra "Şəngülüm, Şüngülüm, Məngülüm Yeni il şənliyini necə hazırladılar" tamaşası təqdim edilib. Teatrlaşdırılmış səhnəcik dostluq, xeyirxahlıq, qarşılıqlı kömək və Xeyrin Şərə qalib gəlməsi üzərində qurulub.

"Gülüstan" sarayında balacalar üçün xüsusi zövqlə qurulan və əsl bayram əhval-ruhiyyəsi bəxş edən dekorasiyalar uşaqların xüsusilə böyük marağına səbəb olub. Rəqslərə qoşulan, mahnılar ifa edən uşaqlar Heydər Əliyev Fondunun onlar üçün təşkil etdiyi bayramı tanınmış sənətçilərin, sevimli nağıl və cizgi filmləri qəhrəmanlarının əhatəsində qeyd ediblər.

Musiqili-əyləncəli proqram müxtəlif uşaq kollektivlərinin və Azərbaycan incəsənət ustalarının iştirakı ilə hazırlanıb.



Qeyd edək ki, müxtəlif uşaq evlərində və internat məktəblərində tərbiyə alan, xüsusi qayğıya ehtiyacı olan uşaqlar, şəhidlərimizin övladları üçün Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində şənlik təşkil edilir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu qəbildən uşaqların problemlərinin həllinə xüsusi diqqətlə yanaşır, onları qayğı ilə əhatə edir.

"Gülüstan" sarayında iki saata yaxın davam edən əyləncəli proqramın sonunda uşaqlara Heydər Əliyev Fondu tərəfindən bayram hədiyyələri verilib. Bayram tədbirində iştirak edən uşaqlardan bəziləri təəssüratlarını AZƏRTAC-la bölüşüblər.

Paytaxtdakı 2 nömrəli internat məktəbinin şagirdi Ümid Şərifov bildirib ki, ən böyük arzusu Vətənimizə layiqli övlad olmaqdır. Balaca Ümid şanlı Zəfərimizlə qürur duyduğunu dilə gətirərək deyib: Şəhidlərimiz, qazilərimiz bizim fəxrimizdir. Onlar bizim üçün canlarından keçib, sağlamlıqlarından məhrum olublar". Tədbirin təşkilinə görə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkürünü bildirən Ümid Şərifov deyib: "Heydər Əliyev Fondu hər il uşaqlar üçün Yeni il şənliyi təşkil edir, bütün uşaqlardan diqqət və qayğısını əsirgəmir. Çox sağ olsunlar ki, uşaqları sevindirirlər. Mehriban xanıma çox minnətdarıq".

Digər müsahibimiz olan Fatimə Babayeva Vətən müharibəsi şəhidi Murad Babayevin yeganə övladıdır. "Bu gün özəl gündür. Biz çox əylənirik. Musiqi, teatr səhnələri ürəyimizcədir. Bu gözəl gün üçün Heydər Əliyev Fonduna, əziz Mehriban xanıma çox minnətdaram", - deyə şəhid övladı sevinc hisslərini ifadə edib.

Atası ilə bağlı xatirələrini bölüşən Fatimə bildirib: "Atam Vətən müharibəsində şəhid olub. Atam və digər şəhidlərimiz canlarını qurban veriblər ki, biz əmin-amanlıq içərisində yaşayaq. Ən böyük arzum hərbçi olmaqdır. Bununla həm də atamın arzusunu reallaşdırmış olaram".

Göstərilən diqqətə görə dövlətimizə, Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü bildirən 16 yaşlı Gözəl Budaqova sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbində təhsil aldığını deyib. Ədəbiyyatı çox sevdiyini bildirən G.Budaqova qeyd edib: "Arzum budur ki, bütün uşaqlar sülh, əmin-amanlıq içərisində, qayğısız yaşasınlar. Biz bu gün bu gözəl şənlikdə çox əyləndik, unudulmaz anlar yaşadıq".

A.S.Makarenko adına Respublika Humanitar Fənlər Təmayüllü Gimnaziyanın şagirdi Renat Əlizadə isə deyib ki, bu gün onun xatirində həmişəlik qalacaq. On yaşlı Renat bayram şənliyinin onda xoş təəssüratlar oyatdığını vurğulayıb. O, bayram şənliyinə görə Heydər Əliyev Fonduna minnətdarlığını bildirib.

# Fransanı BMT TŞ-dən necə qovmalı?



"Dünya beşdən böyükdür". Bunu deyərkən qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Fransa kimi digər BMT Təhlükəsizlik Şurasının (TŞ) üzvlərinin tutduqları mövqelərdən sui-istifadə etdiklərini nəzərdə tutmuşdu. Bəli, dünyanı 5 ölkə idarə edir, Fransa, ABŞ, Böyük Britaniya, Çin və Rusiya. Bu ölkələrdən ikisi - Böyük Britaniya siyasəti, Çin isə iqtisadiyyatı ilə bu posta iddialı olduqlarını sübut etməyə çalışırlar. İnsafən hər ikisi öz "sahələrində" işlərinin öhdəsindən "layiqincə" gəlirlər, desək yanılmarıq. Gələk digər ölkələrə. Əslində "ölkə" deməklə sanki bunların statusunu kiçiltmiş oluruq, gəlin hər kəsi öz adı ilə çağıraq, bunlar liderlik iddialarını ortaya qoymuş imperia dövlətləridir. Əllərində kifayət qədər para, hərbi güc, yeni texnologiyalar olan bu dövlətlər bir-birini əzmək üçün məqam gözləyirlər

ABŞ özünü dünyanın lideri kimi təqdim edir və bütün addımlarının kökündə bu niyyətini hiss etdirmək məqamları dayanır. Dollar dünya pulu kimi ölkələr arasındakı iqtisadi münasibətlərdə hələlik hegemonluq edir. Amma Amerikanın xarici borcunu göz önünə gətirəndə qeyri-ixtiyari olaraq bu ölkənin liderliyi barədə deyilənlər ilğım kimi əriyib gedir. Yəni, ABŞ-ın dünya ölkələrinə, o cümlədən beynəlxalq maliyyə strukturlarına, banklara 33 trilyon dollar borcu var. Bu nominasiyada Şimali Amerika ölkəsi dünya lideridir.

Rusiya da dünya beşlərindən biridir. Bu ölkənin xarici borcu 500 milyard dollardan artıqdır. Ukrayna ilə müharibəyə cəlb edilməmişdən əvvəlki rəqəmlər olsa da, az para deyil. Doğrudur, Rusiya həm də dünyanın ən zəngin ölkəsi sayılır. Hesablamalara görə, Rusiyanın təbii sərvətləri 79 trilyon dollar civarındadır. Buna baxmayaraq zəngin Rusiyanın dövriyyədə olan varidatı digər dünya ölkələrinə nisbətən azdır. Dövlət büdcəsinin əksər payı hərbə xərclənir.

Böyük Britaniyanın xarici borcu isə 3 trilyon ətrafında fırlanır. London problemdən azad olmaq üçün çabalar göstərsə də, addımları hələlik bir nəticə vermir. Buna baxmayaraq bütün borclu ölkələr kimi Britaniya krallığı dab u vəziyyətdən qəti narahat deyil, çünki dünyada borcu olmayan ölkələr demək olar ki, yoxdur.

Dünyanın ikinci borclu ölkəsi statusuna Çin iddialıdır. Asiya nəhənginin xarici borcu 18 trilyon dollar ətrafındadır. Son on ildə Çinin dövlət borcu əhəmiyyətli dərəcədə böyüyüb və ölkənin səlahiyyətliləri üçün ən ciddi problemlərdən birinə çevrilib. Pekin öhdəliklərin artmasını iqtisadi sabitlik üçün potensial təhlükə hesab edir və son illərdə onlardan asılılığı azaltmağa çalışır. Pandemiya ilk növbədə biznes sahəsinə zərbə vurub və hökumət şirkətlərin kredit almasını asanlaşdırmağa məcbur olub, nəticədə 2020-ci ilin üçüncü rübündə Beynəlxalq Hesablaşmalar Bankının məlumatına görə, Çinin borc səviyyəsi ÜDM-in təxminən 290%-ni təşkil edib. Koronavirus böhranı ilində ABŞ Yaponiya və Avropa ölkələrinin iqtisadiyyatları oxşar vəziyyətə düşüb. Buna baxmayaraq, Çin yenə də liderlik edir: ölkədə ÜDM-in 160%-i korporativ sektorun payına düşür.

Beşlikdəki sonuncu ölkə Fransadır. Bu ölkənin xarici borcu 7 trilyon dollardan artıqdır. Bütün bunlara rəğmən Paris bəzi ölkələrə yardımlar etmədən çəkinmir, əsasən separatçı qurumları dəstəkləyir. Fransa pullarını əsasən müharibələrə xərcləyir. Bu yaxınlarda Parisin Ermənistan-Azərbaycan münasibətlərinə lüzumsuz müdaxiləsi, İrəvana verdiyi hərtərəfli dəstək, müharibəni təşviq etmək istəyi və bunun üçün bu ölkənin qanunverici orqanında - Senat və Milli Assambleyada qəbul edilən qətnamələrdən də görünür ki, Fransa xarici borclarını bağlamaq əvəzinə, xarici ölkələrdəki qanunsuz hərbi birləşmələri, terror təşkilatlarını, sepatraqçı qurumları dəstəkləyir və milyardlarla dollar para xərcləyir.

Gələk əsas məsələyə. Ukrayna BMT qarşısında məsələ qaldırıb ki, ölkə ərazisində artıq 310-cu gününə qədəm qoyan hərbi əməliyyatların, bu ölkənin infrastrukturunun, dinc sakinlərinin məhv edilməsində əsas günahkar olan Rusiya Təhlükəsizlik Şurasınının üzvlüyündən çıxarılsın. Çünki ədalətsiz müharibə aparan bir ölkə dünya beşliyində qala bilməz. Əlbəttə, iri dövlətlər ədalət prinsiplərinə daha çox əməl etməlidirlər. Amma Azərbaycanın timsalında beşlikdən olan 3 ölkə 30 il ərzində ilahi ədaləti heç yada salmayıblar. Daim bir tərəfin - işğalçı Ermənistanın yanında olublar. İşğala və işğalçıya bütün mənalarda verilən dəstək sayəsində Azərbaycan dünya birliyi - BMT TŞ qarşısında öz haqqını uzun müddət ala bilməyib. Məhz ABŞ, Fransa və Rusiyanın beynəlxalq standartları, BMT qətnamələrini çeynəmələri sayəsində Ermənistan Azərbaycan torpaqlarının işğalını 30 il davam etdirib. II Qarabağ münaqişəsi zamanı Azərbaycan BMT TŞ-nin 4 qətnaməsinə istinadən addımlar atsa da həmsədr olan hər üç ölkə buna qarşı çıxmaqdan və yenə də torpaqlarımızın 20 faizini qanunsuz olaraq ələ keçirmiş Ermənistanı dəstəkləməkdən bir addım belə geri çəkilməmişlər. Üstəlik də müharibə bitər-bitməz BMT TŞ-nin 5 daimi üzvündən biri olan Fransa Ermənistana 4 milyard avro güzəştli krediti reallaşdırıb. Hətta belə bir xəbər də yayılıb ki, rəsmi Paris bu pulu Ermənistana yardım kimi verib. Guya İrəvan Zəngəzur mahalında hansısa infrastruktur layihələri reallaşdıracaq. O cümlədən bu pullar Ermənistanın dağılmış infrastrukturunun bərpasına da sərf ediləcək. Əgər müharibə Ermənistan ərazisində getməyibsə və məntiqi olaraq bu ölkənin ərazisində də hər hansı bir dağıntının olmasından da söhbət gedə bilməz. Bəs, Fransa 4 milyard avronu hansı layihələri reallaşdırmaq, yaxud hansı dağıntını bərpa etmək üçün verib? Görünür dünya ölkələrinə 7 trilyon dollarlı bir borcu olan Fransa daha 4 milyard borcunun olacağından narahat deyil.

Dünya liderlərinin, beşlik dediyimiz TŞ-nin daimi üzvlərinin borclarını izafi yerə xatırlatmadıq. Borclu, kim olursa-olsun liderlik edə bilməz. Trilyonlarla dollar borcu olan dövlət beşlikdə yer tutmaq əvəzinə yerini layiqli namizədə, sağlam inkişaf yolunu tutan, ədalət prinsiplərini daim uca tutan bir dövlətə verməlidir. Bu gün dünyanın siyasi dairələrində Rusiyanın Ukraynada başlatdığı müharibə səbəbindən BMT TŞ-nin daimi üzvlüyündən çıxarılması məsələsi gündəmdədir. Rəsmi Kiyev israr edir ki, Rusiyanın Ukraydada apardığı müharibə onun Təhlükəsizlik Şurasının daimi üzvü olması ilə bir araya sığmır. ABŞ, Fransa, Böyük Britaniya da Rusiyanın TŞ-ni tərk etməsini ürəkdən istəyirlər. Hətta hüquqi prosedurların başlandığına dair xəbərlə də gəlməkdədir. Amma necə? Bəli, avropalı və amerikalı ekspertlər hələ də baş sındırırlar, prosesi haradan başlamalı? Çünki, ölkələrdən hər hansı birinin TŞ-dən çıxarılma mexanizmi çox da dəqiq qeyil. Hətta, daimi üzvlərdən birinin veto hüququ prosesin sıfırıncı nöqtəyə gəlməsi üçün yetərli sayılır. Əgər Çin səsvermədə "yox" desə,Rusiyanın TŞ-dən çıxarılması mümkün olmaz. Burada səs çoxluğu keçərli deyil.

Tutaq ki, Ukraynanın tələbi ilə Rusiya BMT TŞ-nin daimi üzvlüyündən kənara atıldı. Onda belə çıxır ki, anti-Azərbaycan kampaniyasının başında duran, Qarabağ separatçılarına dəstəyini əsirgəməyən, işğalçı Ermənistanın yanında olan və rəsmi İrəvanı üstümüzə qısqırdan Fransa da Rusiyanın dalıca dışarı atılmalıdır. Bu, əslində Cənubi Qafqazda sülhün yaranmasına böyük dəstək olardı

Rusiyanın BMT TŞ-nin daimi üzvlüyündən çıxarılmasına münasibətlər və ümumiyyətlə, bunun üsuları, mexanizm necə olacağı hər birimiz üçün də maraqlıdır. Nə olar, nə olmaz, ən azından Rusiyanın bu təşkilatdan qovulma üsulunu öyrənməliyik ki, növbədəkinin Fransa olacağına dünya ictimaiyyətini inandıra bilək.

"Moskva Ukraynanın Rusiyanı BMT-dən çıxarmaq çağırışları ilə bağlı heç nə etmək niyyətində deyil". Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Ukraynanın xarici işlər naziri Dmitri Kulebanın bəyanatlarını şərh edərkən bildirib. Daha əvvəl o, Rusiyanın BMT Təhlükəsizlik Şurasının daimi üzvü qalmaq və "ümumilikdə BMT-də olmaq" hüququna malik olmadığını iddia edib. M.Zaxarova bildirib ki, Ukrayna xarici işlər naziri Dmitri Kulebanın Rusiyanı BMT-dən kənarlaşdırmaq çağırışına cavab verməyə ehtiyac yoxdur: "İt hürəndə, karvan irəliləyəndə belə olur. Etməli bir şey yoxdur. Ukrayna öz tarixində müxtəlif hadisələrə şahidlik edib. Ancaq heç bir tarixi mahiyyəti, məntiqi və ya bunun hətta fantaziyalara gətirib çıxara biləcəyini başa düşməyən bu ağrılı ifadələrə qulaq asmağa dəyməz".

Öz növbəsində, Dövlət Dumasının deputatı Oleq Morozov Rusiyanın BMT-dən çıxarılması ideyasını absurd adlandırıb. Onun fikrincə, müasir beynəlxalq institutların məhv edilməsinin dəyəri qlobal hərbi münaqişə olacaq: "Bu təklif Rusiyanın müasir dünyadan kənarlaşdırılması ideyasına bənzəyir. Onun absurdluğu ondadır ki, bu, Ukraynanın bütün bəşəriyyəti Rusiya ilə münaqişəyə cəlb etmək cəhdidir. Müasir beynəlxalq institutları yalnız Kiyevin dünyanı sürüklədiyi qlobal hərbi münaqişə bahasına məhv etmək olar".

Qeyd edək ki, Rusiya SSRİ-nin varisi kimi 1991-ci il dekabrın 24-dən BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Təhlükəsizlik Şurası "beynəlxalq çəkişmələrə səbəb ola biləcək və ya mübahisəyə səbəb ola biləcək hər hansı mübahisəni və ya hər hansı vəziyyəti araşdırmaq, bu mübahisənin və ya vəziyyətin davam etməsinin beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına təhdid yarada bilməyəcəyini müəyyən etmək" səlahiyyətinə malikdir. O, "sülhə qarşı hər hansı təhlükənin mövcudluğunu, sülhün hər hansı pozulmasını və ya təcavüz aktını müəyyən edir və beynəlxalq sülh və təhlükəsizliyi qorumaq və ya bərpa etmək üçün hansı tədbirlərin görülməsi barədə tövsiyələr verir və ya qərar verir". Şura beynəlxalq sülhü və təhlükəsizliyi pozan, o cümlədən silahlı gücdən istifadə ilə bağlı olan dövlətlərə qarşı məcburiyyət tədbirləri tətbiq etmək hüququna malikdir. Təhlükəsizlik Şurasının qərarları bütün ölkələr üçün məcburidir, çünki praktiki olaraq bütün ümumi tanınan dövlətlər BMT-nin üzvüdür. Eyni zamanda, BMT-nin bütün digər qurumları yalnız məsləhət xarakterli qərarlar qəbul edə bilər. Sizcə sonuncu abzasda yazılanlara inanaqmı?

**V.VƏLİYEV**

## YAP Təftiş Komissiyasının iclası keçirilib



Dekabrın 29-da Yeni Azərbaycan Partiyası (YAP) Təftiş Komissiyasının növbəti iclası keçirilib. YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova iclasın gündəliyi və müzakirəyə çıxarılan məsələlər barədə məlumat verib.

İclasda Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyası tərəfindən 2022-ci ilin ikinci yarımilliyi ərzində partiyanın yerli təşkilat aparatlarında aparılmış nəzarət-təftiş tədbirlərinin yekunları müzakirə olunub. Eyni zamanda, YAP Təftiş Komissiyasının 2023-ci ilin birinci yarımilliyinə dair İş planı müzakirəyə çıxarılıb.

YAP Təftiş Komissiyasının üzvləri - Nizami Səfərov, Elman Nəsirov, Aydın Hüseynov, Cavanşir Paşazadə, Səməd Seyidov, Musa Musayev, Naqif Həmzəyev və Badam Hüseynova gündəlikdə duran məsələlərə münasibət bildiriblər. Gündəliyə çıxarılan məsələlər müzakirələrdən sonra təsdiq olunub.

## YAP Gənclər Birliyinin növbəti iclası keçirilib



Dekabrın 29-da Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin növbəti iclası keçirilib. İclasda Gənclər Birliyinin 2022-ci il ərzindəki fəaliyyəti təhlil edilib və qarşıdakı dövrdə həyata keçiriləcək tədbirlər müzakirəyə çıxarılıb. YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov Birliyin 2022-ci ildə fəaliyyətinin Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının tövsiyə və tapşırıqlarına uyğun təşkil edildiyini deyib. O bildirib ki, ötən dövr ərzində gənclərin fərdi inkişafını dəstəkləyən sosial, innovativ, ekoloji layihələrlə bərabər Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illiyinə dair Tədbirlər Planına uyğun olaraq respublika üzrə idman turnirləri təşkil olunub. Ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün gənclərin iştirakı ilə sosial şəbəkələrdə kampaniyalar həyata keçirilib və YAP-ın əməkdaşlıq etdiyi bir sıra xarici siyasi partiyaların gənclər qolları ilə qarşılıqlı təmaslar davam etdirilib. İclasda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar YAP Gənclər Birliyinin həyata keçirəcəyi fəaliyyətə dair müzakirələr aparılıb və müvafiq qərarlar qəbul edilib.

# Həmrəylik günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilib

**Hər bir dövlətin inkişaf prosesində özünəməxsus yeri olan, dərin tarixi keçmişi olan və eyni zamanda digər türk dövlətləri tərəfindən daşıdığı mənaya görə böyük əhəmiyyət kəsb edən günləri var. Dünya arasında körpü rolunu oynayan Azərbaycanın mühüm tarixlərindən biri də 31 dekabrdır.**

Dekabrın 31-i bütün dünya azərbaycanlılarının "Birlik və Həmrəylik" günü kimi qeyd olunur. Tarixi prosesinə nəzər salsaq, Azərbaycan geostrateji əhəmiyyətinə görə torpaqları başqa dövlətlər arasında bölünmüş, Azərbaycan türklərinin daim bir-birindən ayrılmağa çalışdığı bir coğrafiya olub. Qeyd olunan hadisələrin arxasında duran




əsas səbəblərdən biri də sözügedən coğrafiyada mövcud türk varlığıdır. Bu səbəbdən də Azərbaycan gah Rusiyanın, gah da İranın təzyiqi ilə parçalanıb.

Hadisələrin tarixinə qısaca toxunaq. 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə Azərbaycan parçalandıqdan sonra ölkənin şimal hissəsi rusların, cənub hissəsi isə iranlıların hakimiyyəti altında qaldı. Ölkənin şimalı ilə cənubu arasında yerləşən Araz çayı məcburi bölünmənin simvolu kimi tarixə düşdü. Araz çayının hər iki sahilində qalan azərbaycanlılar uzun illər aralarındakı həsrətə son qoymağa çalışdılar.

1989-cu ildə Araz çayının hər iki sahilində azərbaycanlılar tərəfindən sərhəd yürüşü başladı və Naxçıvan Muxtar Respublikası ilə İran arasında sərhəd sədləri götürüldü. Bu hadisələr uzun illər davam edən həsrətin sona çatması istiqamətində atılan böyük addım kimi səciyyələndirildi. Həmin tarixdə İstanbulda Türkdilli Xalqların Konfransı keçirilmişdir. Azərbaycanlılar arasında birlik yaratmağın vacib olduğunu yaxşı bilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev 1991-ci il dekabrın 16-da 31 dekabrın "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" kimi qeyd edilməsi haqqında qərar qəbul etmişdir. 1991-ci ildən 31 dekabr "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" rəsmi olaraq qeyd edilir.

Adı çəkilən tarix həm 10 milyondan çox əhalisi olan Azərbaycan xalqı, həm 30 milyondan çox əhalisi olan Güney Azərbaycan türkləri, həm də dünyanın müxtəlif ölkələrində yaşayan 10 milyonluq Azərbaycan diasporu üçün böyük əhəmiyyət kəsb edir. Dövlətin dünyaya obyektiv təqdim edilməsində, imicinin qorunub saxlanmasında həmin ölkənin əhalisi böyük rol oynayır. Dünyanın müxtəlif coğrafiyalarında yaşayan azərbaycanlılar arasında siyasi platforma yaratmaq, həmrəyliyi təmin etmək üçün lobbiçilik və diaspor fəaliyyəti gücləndirilməlidir. Buna nail olmağın ən səmərəli yolu bütün dünya azərbaycanlılarını bir araya gətirən görüşlər təşkil etməkdir. Xaricdə yaşayan soydaşlarımızın müstəqil Azərbaycan Respublikası ilə əlaqələrini daha da möhkəmləndirmək, dünya azərbaycanlıları arasında birlik və həmrəyliyi təmin etmək məqsədilə 2001-ci il noyabrın 9-10-daümumilli lider Heydər Əliyevin təşkil etdiyi qurultay keçirildi. Bu qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkiliyyinin və fəallığının artmasına təsir göstərdi.

Yorulmaz fəaliyyəti ilə Heydər Əliyev siyasi fəlsəfəsinə, onun liderlik məktəbinə söykənən Prezident İlham Əliyev Ulu Öndərin bu sahədəki xidmətlərini uğurla davam etdirir. Dövlətimizin başçısının "Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi haqqında" 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq, həmin il martın 16-da Bakıda keçirilən növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olub, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynayıb. 2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin birinci forumu isə bütün türkdilli xalqların həyatında mühüm hadisəyə çevrilib, Azərbaycan Prezidenti İlham Əliyevin türk dünyasının birliyinə verdiyi əhəmiyyətin parlaq təzahürü kimi tarixə düşüb.

Diasporumuzun təşkilatlanması prosesi bu gün daha sürətlə gedir. Dünya Azərbaycanlılarının I qurultayında yaradılmış Əlaqələndirmə Şurasının 2008-ci il dekabrın 18-də Bakıda keçirilmiş iclası, toplantıda "Dünya Azərbaycanlılarının Xartiyası"nın qəbulu birlik və mütəşəkkilliyinin artması, tarixi Vətənlə əlaqələrinin möhkəmlənməsi, diaspor potensialının möhkəm amilə çevrilməsini göstərməklə yanaşı, müstəqil Azərbaycanın bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzi olduğunu da bir daha təsdiqləyib.

Yekun olaraq dilindən, dinindən, etnik kimliyindən asılı olmayaraq, bir millətin varlığının ən təməl göstəricisi , özünü eyni millətin bir parçası kimi görən və bu mənada həmrəylik nümayiş etdirən insanların həmrəyliyidir bu tarix. 31 dekabr azərbaycanlıların ictimai-siyasi birliyinin bərqərar olması, təşkilatçılıq bacarığının inkişaf etdirilməsi, ən əsası isə Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması baxımından böyük əhəmiyyət kəsb edir.

***Həmrəylik Günümüz Mübarək!***
***Zəkiyyə Çələbiyeva,***
***Xəzər rayonu, 121 №li tam orta məktəbin müəllimi***






## "Media Menecmenti" təlim proqramının bağlanış mərasimi keçirilib

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə 3 moduldan ibarət olan "Media Menecmenti" təlim proqramının üçüncü modulu keçirilib. SİA xəbər verir ki, "Audiovizual media menecmenti" mövzusunda keçirilən üçüncü modulda Litvanın Baş nazirinin mədəniyyət üzrə ictimai müşaviri, inkişaf və innovasiyaya verdiyi töhfəyə görə iki dəfə regionun ən yaxşı marketinq direktorlarından biri seçilmiş Ornela Ramasauskaite çıxış edib. O, iştirakçılara "Audiovizual mediada tendensiyalar, istehlakçılar və texnoloji yeniliklər", "Audiovizual media subyektlərinin idarə olunması: Ənənəvi və müasir dövrdə üsullar və alətlər", "Effektiv proqram siyasətinin qurulması" və s. kimi mövzularda təlim keçib, qeyd olunan istiqamətlərdə geniş fikir mübadiləsi aparılıb.

"Media Menecmenti" təlim proqramının bağlanış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov jurnalistlərin yaradıcı-innovativ potensialını stimullaşdırmaq, xarici təcrübəyə əsaslanan nəzəri biliklərini artırmaq və yerli mediada tətbiqini reallaşdırmaq, bu istiqamətdə təcrübə mübadiləsini həyata keçirmək üçün xarici mütəxəssislərin cəlb edilməsiylə təlimlərin keçirilməsinin əhəmiyyətindən bəhs edib.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub. 60-dan çox media menecerinin iştirakı ilə keçirilən "Media Menecmenti" təlim proqramının əsas məqsədi ənənəvi və rəqəmsal media ilə işləyərək daha keyfiyyətli məzmunun yaradılmasına, jurnalistika sahəsində yaranan yeni imkanların və mediada yeni tendensiyaların öyrənilməsinə, rəqəmsal media sahəsində peşəkar vərdişlərin inkişaf etdirilməsinə töhfə verilməsidir.

***Banuçiçək Hüseynli***

## "Belə təlimlərin keçirilməsi davamlı xarakter daşıyacaq"




"Medianın İnkişafı Agentliyi tərəfindən ilboyu Azərbaycan Respublikasının jurnalistləri və media subyektləri üçün təlimlərin keçirilməsi davam etdirilir". SİA xəbər verir ki, bu sözləri Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov "Media Menecmenti" təlim proqramının bağlanış mərasimində qeyd edib. İcraçı direktor bildirib ki, bugünkü təlimimiz ilin sonuncu təlimidir: "Media Menecmenti" adlı təlimimizin əsas məqsədi media subyektlərimizin menecmentlərinin bilik və bacarıqlarının artırılmasıdır. Həmçinin media sahəsində idarəetmə bacarıqlarının inkişaf etdirilməsi, peşəkarlığın artırılması baxımından müəyyən köməkliyin göstərilməsidir. Biz təlim üçün xaricdən media mütəxəssimizi dəvət etmişik. Belə təlimlərin keçirilməsi davamlı xarakter daşıyacaq, Azərbaycanın informasiya mühitində çalışan həmkarlarımızln bilik və bacarıqlarının, təcrübələrinin artırılmasında kömək olacaq".




# 10 il “ASAN” həyat...

**Həyatımızın ən lazımlı və vacib bir sahəsi vardır ki, bütün yaş qruplarında olan insanların o sahəyə müraciəti gündəlik yox, anbaandır. O sahə ki, illərlə süründürməçiliklə üzləşməli, bir saata düzələn iş üçün həftələrlə hansısa dövlət orqanına ayaq döyməli olmuşuq. Əsəblərimiz gərilib, planlarımız pozulub, bəzi dövlət orqanlarına inamımız itib, ümidimiz kəsilib. Bəli, söylədiklərimizi təsdiqləyən çox sayda insan var ki, hər hansı bir sənədin alınması, xidmətin həyata keçirilməsi üçün bunları dəfələrlə yaşayıb. O zamana qədər ki, həyatımıza ”ASAN xidmət” daxil oldu. Və budur, artıq biz 10 ildir ki, ”ASAN”la asan bir həyat yaşayırıq...**

## Son 19 ilin reallıqlarından biri

Bəli, bu, bir faktdır ki, son 19 il müstəqil Azərbaycanın tarixində şanlı bir səhifə yaradıb. Bu şanlı səhifələrə çox ilklər həkk olunub. Bunlardan biri də ”Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 iyul 2012-ci tarixli Fərmanı ilə yaradılan ”ASAN xidmət” mərkəzləridir. O ”ASAN xidmət” mərkəzləri ki, dövlətimizin başçısının uğurlu layihəsidir, artıq 10 ildir fəaliyyət göstərir və insanlar bu xidmətdən çox razıdırlar. Bu xidmətin yaradılmasında insan amili dayanır. ”ASAN xidmət” ölkəmizdə vətəndaşlara verilən dəyərin bariz nümunəsi, inkişafın göstəricisi, insanların həyatına rahatlıq töhfəsidir. ”ASAN xidmət” həyatımızın asanlaşdırılması, bir mərkəzdə birləşən xidmətlərlə həm vaxt, həm də artıq vəsait itkisinin qarşısının alınmasıdır.

Bakıda pilot layihə olaraq ilk ”ASAN xidmət” mərkəzinin açılışı 29 dekabr 2012-ci ildə olmuşdur. Mərkəz doqquz dövlət orqanının təklif etdiyi 23 xidməti həyata keçirirməklə 15 yanvar tarixində fəaliyyətə başlamışdır. Yaradılmasından ötən bir il ərzində Sumqayıtda, Gəncədə də ”ASAN xidmət” mərkəzləri yaradılmış, Bakıda bu mərkəzlərin sayı 3-ə çatdırılmışdır. Artıq 2014-cü ilin əvvəlində ”ASAN xidmət” mərkəzlərindən istifadə edən vətəndaşların sayı 1 milyona çatmışdır.

2014-cü ildə mayın 7-də Bakıda sayca dördüncü, dekabr ayında isə ölkədə yeddinci olaraq Sabirabadda ”ASAN xidmət” mərkəzinin açılışı olmuşdur. 2015-ci ildə Bərdədə, həmin ilin yayında, iyulun 14-də Azərbaycanda hələlik 5 saylı Bakı ”ASAN xidmət” mərkəzi açılmışdır. 2016-cı ildə Masallı və Qəbələ, 2017-ci ildə Quba, 2018-ci ildə isə Mingəçevir, İmişli və Şəki, 2019-cu ildə Şamaxı, 2020-ci ildə Kürdəmir, Tovuz, Ağcabədi və Balakən sakinlərinin də həyatına bu asanlıq daxil olmuş və onlar da digər bölgələrdə olan insanlar kimi vaxt və vəsait itkisinə son qoymuşlar. 2021-ci ildə 6 saylı Bakı ”ASAN xidmət” mərkəzi, 2022-ci ildə 2 saylı Gəncə regional ”ASAN xidmət” mərkəzi və 7 saylı Bakı ”ASAN xidmət” mərkəzi fəaliyyətə başlamışdır.




təhlil

2014-cü ildə "ASAN xidmət" İSO 9001:2008 idarəetmə standartı üzrə beynəlxalq sertifikata, həmin ilin yayında səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə "Uğur 2013" mükafatına, dekabrında isə OHSAS 18001:2007 standartı üzrə beynəlxalq dərəcəli sertifikata, 2015-ci ildə "ASAN xidmət" BMT-nin 2015-ci il Dövlət Xidmətləri Mükafatına layiq görülmüşdür. 2015-ci ilin martında Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən 13 sahə üzrə keçirilən, müxtəlif dövlətlərin 700-dən çox müəssisənin müraciət etdiyi müsabiqənin "Dövlət xidmətlərinin həyata keçirilməsinin təşkilində təhlükəsiz əmək şəraitinin qurulması" sahəsi üzrə qalibi olmuşdur.

## Operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış, rahatlıq və bunların fonunda 10 il əvvəl...

Bəli, "ASAN xidmət"dən söz düşəndə insanda yaranan ilkin təəssüratlar bunlardan ibarət olur: operativlik, səffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış və rahatlıq. Çünki indi həyatımızı asanlaşdıran, vaxt itkisinin qarşısını alan, çox nəzakətlə qarşılanıb, hörmətlə yola salındığımız, sayəsində əlavə vəsait xərcləmədiyimiz "ASAN xidmət"lərdən əvvəl vətəndaşların qarşılaşdıqları bir çox problemlər var idi. Elə "ASAN xidmət"in yaranmasının 10-cu ildönümündə cəmi bir 10 ildə əldə etdiyi uğurlarından, fəaliyyətini vətəndaş məmnunluğu ilə qura bilməsindən, operativliyi və şəffaqlığından söhbət açarkən ondan əvvəlki illərdə vətəndaşlarımızın qarşılaşdıqları problemləri də xatırlamağın yerinə düşdüyünü düşünərək həmin illərə qayıtmaq istəyirəm. Çünki dünəni unutsaq, bugünkülərin nə dəyərini bilərik, nə də qədrini.

Cəmi 10 il bundan əvvəl vətəndaş hər hansı bir sənədin əldə edilməsi üçün bəzən günlərlə yox, həftələrlə aid təşkilatların qapısında qalmalı olurdu. Gözləmək insanları, necə deyərlər, təngə gətirirdi. Qəbullara düşmək o qədər çətin idi ki, hər hansı sənədlə, xidmətlə bağlı aid məsul şəxslə görüşmək elə bir lotereya biletinin udması kimi şans idi. Yaxşı, görüşdün, axı bu işin həlli deyildi. Hələ ilkin məlumatı alır, istənilən bir sənədin düzəldilməsi, xidmətin həyata keçirilməsi üçün haradan başlamağı öyrənmiş olurdun. Burada işin hələlik bitirdi, başlayırdın digər idarələri, müəssisələri gəzməyə. Vaxt gəlib ay olurdu, lakin məsələn, bir evin, maşının qeydiyyata alınması işini hələ də tamam edə bilmirdin. Çünki uzun bir yolda elə maneələrlə qarşılaşırdın ki, bəzən axıra çatdıra bilmir, həll etmək istədiyin işdən əl götürməli olurdun. Açığını deyək ki, süründürməçiliyin əsasında rüşvətxorluq halları var idi. Hansısa məsul adama məlum vəsait çatdırılmadıqda, hər dəfə müraciətində səni "başdan" edir, hər dəfə yeni bəhanələr gətirirdi, təki o məbləği alanadək. İnsanlar da gəlirlərinin səviyyəsindən asılı olmayaraq həmin məbləği tapmalı, bir yerə toplamalı, sonra o işin ardınca getməli idi.

Bütün bu süründürməçilik isə vətəndaşların vaxt itkisinə də şərait yaradırdı. Məsələn, kəndlərdən rayon mərkəzinə hansısa bir sənəd üçün gələn adam onsuz da yarı gününü itirirdi. Sənədi ala bilməyəndə isə yenidən gəlməli olurdu ki, bu da həm vaxt, həm də vəsait itkisinə səbəb olurdu. Adam bir də kəndə-evinə qayıtmalı, səhəri gün bir də o qədər əziyyət çəkməli, həmin sənədi almaq üçün rayon mərkəzinə getməli, o da ki, düzələ, ya düzəlməyə.

Bax, 10 il əvvəl belə problemlərlə qarşılaşırdı insanlar. Həm müəyyən sənədin rüsumunu dövlətə ödəyirdi, həm də müəyyən olunmuş "rüsumları" ciblərə ödəmək məcburiyyətində qalırdı. Bu rüsumu ödəmək istəmədikdə isə süründürməçiliklə yanaşı, həm də kobudluqla, nəzakətsizliklə qarşılaşırdı.

10 il əvvəl "ASAN xidmət" yaradılanda müəyyən xidmətlər var idi ki, orada cəmləndi, təbii ki, onlar yerli aid orqanlardan alındı. Bu, heç də onların ürəyincə olmadı. Çünki yuxarıda da vurğuladığım kimi, müəyyən etdikləri "rüsumlar" əllərindən çıxarıldı. Burada qazanan vətəndaş oldu. Əslində 10 il əvvəl heç kimin ağlına belə gəlməzdi ki, zaman gələcək belə bir xidmət fəaliyyətə başlayacaq və oraya müraciət edən kəs bu qədər məmnun qalacaq.

İnsan faktorunu daim dövlət siyasətinin prioriteti hesab edən ölkəmizin başçısı vətəndaşların rifah halının yüksəldilməsi ilə yanaşı, onların rahat yaşaması, heç bir çətinliklə üzləşməməsi, sosial qayğılardan xilas olması yollarını da axtarır və bütün bunların qısa zamanda həlli yollarını tapmağa çalışırdı. Elə "ASAN xidmət"in Azərbaycan brendi kimi tətbiqi dövlətimizin başçısının sosial sahədə həyata keçirdiyi siyasətin uğurlu nəticəsi, insana amilinə verilən dəyərin göstəricisi oldu. Artıq 10 ildir ki, tətbiq olunan və hər il coğrafiyası genişləndirilən "ASAN xidmət"lə vətəndaşların həyatında müsbət dəyişikliklər baş verdi. Dövlət xidmətlərindən istifadədə onların razılığı təmin edildi. Belə ki, vətəndaşlar artıq dövlət xidmətlərindən daha operativ və keyfiyyətli formada istifadə edə bilir və bununla da insanlar arasında dövlət orqanlarına etimad artır. Bu baxımdan "Asan xidmət"in fəaliyyəti əhali tərəfindən razılıqla qarşılanır. Mərkəzə müraciət edən vətəndaşların məmnunluğunun 98-100% arasında dəyişməsi buna bir sübutdur. Bu məmnunluq isə operativliklə, şəffaflıqla yanaşı, özündə həm də nəzakətli davranışı, məsuliyyətli yanaşmanı, etik davranışa riayət etməni və ümumilikdə vətəndaşa lazım olan rahatlığı da ehtiva edir.




## Asan xəritə

"ASAN xidmət" eyni zamanda insanın düşüncəsində "asan xəritə" anlayışını da canlandırır. Həqiqətən də artıq "ASAN"la sosial həyatımızın asan bir xəritəsi yaranmışdır. Ötən 10 ildə bu xəritə öz coğrafiyasını genişləndirərək Bakı şəhərindən rayonlarımızadək şaxələnmiş, illərlə əziyyət çəkən insanlar üçün böyük məbləğdə vəsait itkisi idi. Maraqlısı odur ki, bu ünvan vətəndaşların qeydiyyatı üzrə rayonlaşmır. Bütün ölkə vətəndaşları üçün eynilik təşkil edir.

Əvvəllər Bakıda yaşayan, lakin rayonda qeydiyyatda olan vətəndaşlar şəxsiyyət, sürücülük vəsiqəsini dəyişdirmək, yenidən almaq üçün rayona getmək məcburiyyətində qalırdılarsa, bunun üçün xeyli miqdarda vəsait xərcləməli-həm dövlət, həm digər "rüsumları" ödəməli olurdularsa, bu, bir vətəndaş üçün böyük məbləğdə vəsait itkisi idi. Vəsait itkisi ilə bərabər, həm də vaxt itkisi demək idi. Hər hansı bir idarə, müəssisə və təşkilatda çalışan vətəndaş iş vaxtı rayonlara gedə bilmirdi. Bayram günlərində isə iş olmadığından bu işləri həyata keçirə bilmirdi. Bu isə müəyyən çətinliklər yaradırdı.

"ASAN xidmət" modelinin yaradılması ilə bu problemlər, süni əngəllər təbii ki, aradan qaldırıldı.

"Asan xidmət"in həmçinin səyyar şəkildə bölgələrdə fəaliyyət göstərməsi də bu problemlərin qarşısı alır. Bu model yaradılmamışdan əvvəl vətəndaşlar sosial müavinətlərini aldıqları zaman problemlərlə rastlaşırdılar. Ancaq "Asan xidmət" və "Asan Səyyar Xidmət"-in təşkili ilə istər Bakı şəhərində, istərsə də regionlarda yaşayan əhalinin problemlərinin həlli asanlaşıb.

"ASAN xidmət"in yaratdığı mobil tətbiq vətəndaşların işini daha da asanlaşdırır. Mobil tətbiqin yaradılmasında əsas məqsəd vətəndaşlar üçün çevikliyi təmin etməklə, onların əlavə vaxt itkisinin, məsrəflərinin qarşısını almaqdır. "ASAN xidmət" mobil tətbiq vasitəsi ilə vətəndaş "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində müvafiq xidmət mərkəzini seçə, zəruri sənədlərin siyahısı ilə tanış ola və növbə götürə bilir. Həmçinin seçilmiş xidmət üzrə təqdim olunan mərkəzlərdə növbə sayı və növbənin bitmə vaxtı ilə tanış ola və müvafiq mərkəzi seçə bilir. Eyni zamanda "ASAN xidmət" mobil tətbiqində vətəndaşlar üçün onlayn müraciət və telefon vasitəsi ilə 108 "Çağrı" mərkəzi ilə əlaqə, vətəndaşın dayandığı mövqedən xidmət mərkəzinə xəritə əldə etmək imkanı yaradılıb

"Asan xidmət" mərkəzləri xidmətləri vətəndaşlara "vahid pəncərə" prinsipinə əsaslanaraq təklif edilir. Yəni vətəndaşlar eyni bir məkanda müxtəlif dövlət qurumlarının istənilən xidmətlərindən eyni vaxtda yararlana bilirlər. Bu da vətəndaşların fərdi xərclərini azaldır və vaxt itkisini aradan qaldırır. Mərkəzlərin fəaliyyətinin əsas üstünlüklərindən biri də həftənin bütün günlərində vətəndaşlara fasiləsiz xidmət göstərməsidir. Bütün bunlar isə "ASAN"a aid xəritədə birləşir. Bu xəritə isə özündə Azərbaycan vətəndaşlarını birləşdirir. Onlara asan xidmətlər göstərir. Vətəndaş bu xidmətdən necə məmnun qalmaya bilər?..

## Bu gün "ASAN könüllü"sü, sabah dövlət qulluqçusu

Prezident İlham Əliyev demişdir: Azərbaycanda çox müasir, dövlətə, Vətənə bağlı olan gənc nəsil yetişir və "ASAN könüllüləri"nin fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Çünki onlar bu işlərə könüllü şəkildə qoşulurlar, özləri bu təşəbbüsü göstərirlər və işləri ilə ölkəmizin ümumi inkişafına töhfə verirlər...

Bəli, "ASAN xidmət"in yaradılması ölkəmiz, onun vətəndaşları üçün nə qədər əhəmiyyətli oldusa, "Asan xidmət"lərdə həyata keçirilən "könüllü fəaliyyət" proqramları da bir o qədər əhəmiyyətli oldu. Hər il yüzlərlə gənc könüllü şəkildə "ASAN xidmət" mərkəzlərinə gəlir, öz iş qabiliyyətlərini və intellekt səviyyələrini gücləndirirlər. Bu, tək intellekti gücləndirmək yox, həm də gələcəkdə dövlət qulluqçusu kimi fəaliyyət göstərməyə hazırlıq deməkdir.

"ASAN xidmət" mərkəzlərində olarkən qarşılaşdığımız könüllülər bütün xidmət sahələrində növbəli şəkildə fəaliyyət göstərirlər. Bu fəaliyyətləri ilə onlar da təbii ki, vətəndaş məmnunluğunun təmin edilməsinə yardımçı olurlar.

Könüllülər müqavilə əsasında 2 ay müddətində fəaliyyət göstərir, müqavilədə nəzərdə tutulmuş öhdəlikləri 2 ay ərzində həyata keçirən könüllülərə agentliyin rəsmi sertifikat və xasiyyətnaməsi verilir. Könüllü fəaliyyət müddəti ərzində ilk cəlb olunmuş könüllülər vətəndaşların qarşılanması, məlumatlandırılması, anketlərin doldurulması, elektron lövhələrdə işləmə, sıra növbələrinin verilməsi kimi işlərlə məşğul olurlar. Gənclərin könüllü fəaliyyətə marağının artması və könüllü axınının çoxalması bu fəaliyyətin "ASAN xidmət" mərkəzləri ilə yanaşı, agentliyin digər sahələrində tətbiqinə də yol açıb. Belə ki, könüllülər agentliyin sosial innovasiyalar və strateji araşdırmalar, nəzarət və qiymətləndirmə şöbələrinə xidmətə cəlb olunurlar və bununla da onlar bir çox sahələr üzrə yeni təcrübələrə yiyələnirlər.

2012-ci ildən bu günədək minlərlə gənc "ASAN könüllüləri"nə çevrilib, onlar nəinki ölkəmizin sosial həyatında, həm də ictimai həyatında fəallıq göstərirlər. Eyni zamanda "ASAN School"dan keçərək gələcək karyeralarını da qururlar.

"ASAN könüllüləri"nin I Ümumrespublika Forumunda çıxış edən Prezident İlham Əliyev bildirib: "Şadam ki, artıq "ASAN xidmət"in böyük könüllülər dəstəsi vardır. "ASAN xidmət" cəmi iki ilə yaxındır ki, fəaliyyət göstərir. Bu müddət ərzində 2 mindən çox könüllü "ASAN xidmət"də işləmişdir, təcrübə toplamışdır və ümumi işimizə öz töhfəsini vermişdir. Hazırda 500 könüllü bizim mərkəzlərdə çalışır və beləliklə, gözəl bir gənc nəsil yetişir. Gənclərimiz bizim gələcəyimizdir... Əminəm ki, bütün başqa sahələrdə könüllülər institutu Azərbaycanda daha da sürətlə formalaşacaq və ümumiyyətlə, bu, cəmiyyətin niyyətini ifadə edir. Çünki Azərbaycanda hazırda mövcud olan ictimai-siyasi vəziyyət, gözəl ab-hava belə təşəbbüslərin irəli sürülməsinə imkan yaradır..."

Bəli, ötən 10 il vətəndaşlara tək "ASAN" həyat bəxş etməyib, eyni zamanda onların övladlarının da məşğulluğu üçün böyük rol oynayıb. Bu gün ölkəmizdə yüzlərlə gənc könüllülükdən dövlət qulluqçusunadək yüksəlib, üstəlik bu qurumda müxtəlif yüksək vəzifələri icra etməkdədirlər. Bütün "ASAN"çılar ölkədə nüfuz sahibləridirlər. Çünki bu yeni modelin tətbiqini ürəklə, bacarıqla, insanların məmnunluğunu qazanmaqla həyata keçirirlər. Elə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalının və "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 697-VIQD nömrəli Qanununun tətbiqi haqqında" 27 dekabr 2022-ci il tarixli Fərmanı və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında" 27 dekabr 2022-ci il tarixli Sərəncamı "ASAN xidmət" İşçilərinin Peşə Bayramı Gününə və ilk "ASAN xidmət" mərkəzinin fəaliyyətə başlamasının 10-cu ildönümünə böyük töhfədir. Dövlətimizin başçısının imzaladığı bu sənədlər eyni zamanda vətəndaş məmnuniyyətini qazanmış bu quruma və onun əməkdaşlarına məmnunluğun ifadəsidir.

***Mətanət Məmmədova***

# Dmitri Solonnikov: “Ermənistan Qərbin tapşırığı ilə sülh razılaşmasını pozur”

**Rusiyanın Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov ”Caliber.Az”-a müsahibəsində Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı maraqlı fikirlər bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.**



*- Ermənistanın Moskvada Azərbaycanla danışıqlarda iştirakdan imtina etməsini necə qiymətləndirirsiniz? Ermənistan hakimiyyətinin bu cür cəsarətli demarşının əsl səbəbi nədir?*

- Ermənistanın Moskvada planlaşdırılan üçtərəfli danışıqlardan imtina etməsi bu ilin sonunda tam şəkildə ortaya çıxan tendensiyanın təzahürüdür. Bundan sonra Ermənistan danışıqları müstəsna olaraq Qərbin himayəsi altında aparmağa çalışacaq. Ermənistanın hazırkı rəhbərliyi Fransa və ABŞ-ın protektoratıdır, ona görə də Ermənistan tərəfindən istənilən siyasi aksiya müstəsna olaraq onların himayəsi və onların iştirakı ilə həyata keçiriləcək.

Bu səbəbdən Sergey Lavrovun danışıqlar prosesinin moderatoru olması nəzərdə tutulan Azərbaycan, Ermənistan və Rusiya xarici işlər nazirləri arasında Moskvada danışıqlar İrəvan üçün qəbuledilməz oldu. İndiki Ermənistan rəhbərliyi öz seçimini edib və görünür, Paris və Vaşinqtonun diktə edəcəyi qaydalarla oynayacaq. Ermənistanın NATO-ya daxil olmayan Avroatlantik təşkilatların təşəbbüsü ilə keçirilən danışıqlar platformasından imtina etməsi bunu bir daha təsdiqlədi.

*- Sizcə, Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsi baxımından geridə qalan il hansı olub?*

- Hesab edirəm ki, ötən ilin Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması nöqteyi-nəzərindən qiymətləndirilməsi yuxarıda deyilənlərdən irəli gəlir. Hesab edirəm ki, 2022-ci il sülh sazişi imzalamaq və mövcud vəziyyətdən çıxmaq üçün reallaşmamış fürsət ili oldu. Əgər Ermənistan əvvəllər imzalanmış sazişləri həyata keçirmək yolu ilə getsəydi, bunun qarşısını almaq olardı. Amma Qərb qüvvələrinin, xüsusən də Fransa və ABŞ-ın prosesə müdaxiləsi nəticəsində bu şans reallaşmadı və bu problemi gələcəyə təxirə saldı. Belə ki, hazırda Ermənistanı danışıqlar prosesindən və sülh müqaviləsinin imzalanmasından uzaqlaşdıracaq ssenari işə salınıb.

Fikrimcə, danışıqlar bu il sıçrayışla yekunlaşa bilərdi, biz sərhəd sazişinin, sülh müqaviləsinin imzalanmasının, Cənubi Qafqazda yeni həyatın, o cümlədən Ermənistanın özündə normal həyatın başlanğıcının şahidi ola bilərdik. investisiyalar, logistika infrastrukturunun qurulması, ticarətin artımı və s. Amma yox, Ermənistan başqa istiqamət seçib.

*- Yəni gələn il sülh müqaviləsinin imzalanması ehtimalı da aşağı olaraq qalır?*

- Heç nəyə imza atmamaq üçün danışıqlar prosesində qərarların qəbulu baxımından mənasız ləngimə olacaq. Bu, Avropa tərəfdən danışıqların bütün iştirakçılarının, xüsusən də Fransanın aldadılması olacaq. Belə bir siyasət Minskdə artıq nisbətən uğurla həyata keçirilib və indi də Ermənistan-Azərbaycan münaqişəsinin həllində də eyni ssenarini tətbiq etməyə çalışacaqlar. Bununla bağlı Ermənistana silah verəcək, Azərbaycanı və Rusiyanı aldadacaq, nə etməyəcəklərini əvvəlcədən elan edəcəklər. Bir sözlə, indi Cənubi Qafqazda məkrli fransız diplomatiyasından istifadə olunacaq. Bu ssenaridə danışıqlar müsbət heç nə ilə bitməyəcək və biz hər hansı bəhanə ilə NATO ölkələrindən Ermənistana yeni müşavirlərin, müşahidəçilərin və təlimatçıların necə göndəriləcəyini müşahidə edəcəyik. Müvafiq olaraq, danışıqlar prosesi ətrafında vəziyyət daha da pisləşəcək.

*- Ermənistanda müəyyən qüvvələr Azərbaycanla yeni müharibəyə çağırışlar edir, xüsusən də bu yaxınlarda keçmiş baş nazir Xosrov Arutyunyan bu fikri səsləndirib. Gələcəkdə belə bir ssenari üçün ciddi ilkin şərtlər varmı?*

- Yaxın gələcəkdə tam hüquqlu müharibə mümkün deyil. Bununla belə, həm Fransa, həm də ABŞ Ermənistanı revanşa doğru sövq edəcək. Bunun üçün Ermənistanı NATO standartlarına uyğun formatlaşdıracaqlar və belə bir müzakirə olacaq ki, Ermənistan 44 günlük müharibəni Azərbaycana uduzdu, çünki onun lazımi taktikası, düzgün silahları və yaxşı müttəfiqləri yox idi. Bu baxımdan onlar Ermənistan ordusunu NATO modeli üzrə yenidən hazırlayacaq, onları ermənilərin yeni müharibədə qalib gələ biləcəklərinə inandıracaqlar. Bunun fonunda Ermənistanın Qərb dövlətlərinin köməyi ilə hazırlayacağı qisas və yeni müharibə çağırışları, şübhəsiz ki, güclənəcək. İnanıram ki, Ermənistanın indiki rəhbərliyi də məhz bu ssenari ilə gedəcək.

***Tərcümə - Elçin Bayramlı***

# Xankəndi-Laçın yolu humanitar məqsədlər üçün açıqdır!

## Rusiya sülhməramlıların minik avtomobilinin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb

Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus daha 2 minik avtomobilin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb. SİA xəbər verir ki, nəqliyyat vasitəsinin maneəsiz şəkildə hərəkət etməsi təmin olunub. Belə ki, həmin avtomobillər Laçından Xankəndi istiqamətinə keçib. Dünən Laçın-Xankəndi yolundan Rusiya sülhməramlılarına məxsus 13 avtomobil maneəsiz hərəkət edib. Bu,












bir daha onu sübut edir ki, yol aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün açıqdır.

Xatırladaq ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Şuşadan keçən Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası 18 gündür davam edir. Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı aktivistlər və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə keçirilir.

2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və ”AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

# Ərazilərimizin erməni separatçılarından təmizlənməsi labüddür

**Ölkəmizin xarici siyasət strategiyasının əsas prioritetlərindən biri də qonşu Ermənistanla sülh müqaviləsinin imzalanmasıdır və bu istiqamətdə Azərbaycanın atdığı addımlar da bəllidir. Məsələnin uzanmasında maraqlı görünən tərəfin Ermənistan tərəfi olduğu da heç kim üçün sirr deyil. Rəsmi Bakı bütün məsələlərə hüquqi müstəvidə, ədalət müstəvisində yanaşsa da, İrəvan 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanata zidd hərəkət edir və ümumiyyətlə, razılaşmalardan boyun qaçırmağa çalışır.**

Azərbaycan bütün qonşu dövlətlərlə münasibətlərini daha da yaxşılaşdırmaqda davam edir. Digər qonşu ölkələrlə yanaşı, qardaş Türkiyə ilə ikitərəfli münasibətlərə hər zaman daha çox önəm verilir və bu da məntiqidir. Hər zaman olduğu kimi, Türkiyə Azərbaycanın ən yaxın dostu, müttəfiqi sayılır və iki qardaş ölkənin liderlərinin ötən il imzaladığı Şuşa Bəyannaməsi ölkələrimizin Cənubi Qafqazda təhlükəsizliyinin və əməkdaşlığının qarantı hesab olunur. Məhz bu rakursda da Şuşa bəyannaməsindən irəli gələn bütün sahələrdə Azərbaycan Türkiyə ilə birgə iş aparmaqda, yeni sənədlər hazırlamaqdadır. Təkcə qardaş Türkiyə ilə deyil, Azərbaycan digər dövlətlərlə də münasibləri daha da yaxşılaşdırır, əlaqələrini möhkəmləndirir. Mütəmadi olaraq xarici ölkələrin nümayəndələri, hətta dövlət başçıları ilə keçirilən görüşlər əlaqələrin daha da möhkəmləndirilməsinə, münasibətlərin daha da yaxşılaşdırılmasına əsaslı zəmin yaradır. Bütün bu faktlar isə ölkəmizin dünya miqyasında siyasi fəallığınını təsdiqləyir. Təsadüfi deyil ki, 2022-ci ildə 69 ölkə Azərbaycanla diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edib. Məsələ burasındadır ki, Azərbaycanın bütün qonşu dövlətlərlə münasibətlərini daha da yaxşılaşdırmaq istəyinin, niyyətinin, bu istiqamətdə əldə etdiyi uğurların fonunda işğalçı ölkə olan Ermənistan ölkəmizlə sülh danışıqları prosesinə, münasibətlərin ən azından normallaşdırılmasına əngəl törətməkdə davam edir.

"Prioritet mühüm tərəfdaşlarla əməkdaşlığı inkişaf etdirməkdir. Azərbaycan da çoxtərəfli platformalar çərçivəsində fəallığını davam etdirəcək. Davamlılıq və sülh bizim üçün əsas prioritetdir. Ümid edirik ki, qarşı tərəf də sülhü hədəfləyəcək", deyə Azərbaycanın XİN rəhbəri Ceyhun Bayramov 2022-ci ilin yekunları ilə bağlı keçirdiyi geniş mətbuat konfransında bildirib və bəyan edib ki, Azərbaycanın fundamental prioritetləri 2023-cü ildə də dəyişməz olaraq qalacaq. Xarici işlər nazirinin qeyd etdiyi kimi, həqiqətən də Ermənistan tərəfi hətta Laçın yolundakı vəziyyətlə bağlı dinc etiraz aksiyaları ətrafında vəziyyəti qəsdən gərginləşdirmək istəyir və Qarabağda hansısa "humanitar böhran" haqqında saxta mif yaratmağa çalışır. Əslində, "humanitar böhran" barədə heç bir söhbət belə ola bilməz və azərbaycanlı ekoaktivistlər yalnız öz torpaqlarında olan iki mədənə baxış keçirmək, ekoloji monitorinq aparmaq niyyətindədirlər, hansı ki, buna hərhansı adı qoymaq qəbuledilməzdir. Azərbaycanın dövlət strukturlarının nümayəndələrinin Qarabağ iqtisadi rayonunda yerləşən faydalı qazıntı yataqlarının monitorinqinin qarşısı alınırsa, bu, əslində bir təxribatdır. Ekoloji fəalların buna qarşı dinc aksiya keçirməsi isə onların tam hüququdur və burada heç bir böhrandan söhbət gedə bilməz.











Azərbaycan tərəfi hər zaman olduğu kimi, qanuni, hüquqi tələblərlə çıxış edir. İstər mədənlərlə bağlı, istər Qarabağda qalan erməni silahlı dəstələrinin çıxarılması ilə bağlı, istərsə də ermənilərin uydurduğu statusla bağlı Azərbaycanın möveyi konkretdir, qətidir və dəyişməzdir. Beləki, Azərbaycana məxsus mədənlərin qanunsuz istismarı, ekoloji terror dayandırılmalı, ermənilərin uydurduqları status məsələsi tamamilə yığışdırılmalı, müzakirə predmeti belə olmamalı, Qarabağda qalan erməni silahlı dəstələri çıxarılmalı, ya da zərərsizləşdirilməlidir. Burada ermənilərin hansısa variant axtarmaları yersizdir, çünki nəticəsiz qalacaq. Bunu Rusiya tərəfi də çox yaxşı başa düşür. Qarabağda qalan erməni silahlı dəstələrinin çıxarılması ilə bağlı rəsmi Bakının tələbi qarşısında Moskvanın da mövqeyi bəllidir. "Erməni silahlı dəstələrinin çıxarılması Ermənistanın öhdəliyidir", fikrində olan Kreml faktiki olaraq məsuliyyəti Ermənistanın üzərinə atır. Doğrudur, 10 noyabr razılaşmasına görə Rusiya da bu məsələdə məsuliyyət daşıyır. "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir", deyə razılaşmasının 4-cü bəndində qeyd olunur. Halbuki, sülhməramlı kontingent yerləşdirilib, amma erməni silahlı dəstələri tamamilə oranı tərk etməyiblər. Bəli, həqiqətən də erməni silahlılarının çıxarılması İrəvanın öhdəliyidir, amma burada bölgəyə sülhməramlı yerləşdirən Rusiyanın da vəziyyətə nəzarət etmək, razılaşmanın bütün bəndlərinin icrasını dəstəkləmək kimi bir öhdəliyi də var axı. İndi bu öhdəliyini yerinə yetirməməklə Rusiya tərəfi silahlı dəstələrin çıxarılması prosesini ləngidir. Daha dəqiq desək, məsuliyyəti Ermənistanın üzərinə atan Rusiya artıq Ermənistanı Azərbaycanla üz-üzə qoyur və bununla burada qarşıdurmanın olması üçün də şərait yaradılır.

Bilirik ki, 44 günlük müharibə başa çatdıqdan, Ermənistan tərəfi rüsvayçı məğlubiyyətlə üzləşdikdən və təslimiyyət, kapitulyasiya sənədinə imza atdıqdan sonra keçən iki il müddətində Qarabağda qalan qanunsuz erməni silahlı dəstələri mütəmadi olaraq silahlandırılıb. Onların silahla təmin olunması da təsadüfi olmayıb. Bunun üçün əməllibaşlı şərait yaradılıb ki, separatçılar da bundan istifadə ediblər. Ən azından silahların Qarabağa gətirilməsinə mane olunmayıb. Bu isə Rusiyanın sülhməramlı kontingentinin öhdəliyinə zidd hesab olunur. Məgər Qarabağda separatçılar "döyüş postları" qurduqları zaman sülhməramlılar bundan da xəbərsiz olublar? Axı onlar ekoloji fəalların "post" qurmaq yox, baxış keçirmək niyyətlərindən belə dərhal xəbər tutdular və xəbərsiz olmaları heç cür ağıla sığan deyil.

Məntiqi olaraq belə çıxır ki, əgər Rusiya erməni silahlı dəstələrinin çıxarılması məsələsi ilə bağlı məsuliyyəti Ermənistanın üzərinə atırsa, deməli, bir gün Azərbaycan tərəfi Qarabağda antiterror əməliyyatı keçirəcəyi zaman da məsələyə qarışmamalıdır. Yox, əgər qarışmaq fikri varsa, vaxtında qarışsın və buna yol verilməsin. Amma reallıq ondan ibarətdir ki, Azərbaycan sonsuza qədər səbr edə və erməni silahlılarının Qarabağ ərazisində qalmasına, mütəmadi olaraq silahlandırılmasına göz yuma bilməz. Qanunsuz silahlı dəstələrin çıxarılması, Qarabağ ərazilərinin onlardan təmizlənməsi labüddür. Azərbaycan tərəfi heç bir zaman hansısa maliyyə fırıldaqçısı ilə, Ruben Vardanyan kimi biri ilə danışıqlar aparmaq niyyətində deyil, bunu ölkənin XİN rəhbəri də rəsmi şəkildə bəyan edib. Rəsmi Bakı İrəvanın yerinə yetirməli olduğu, amma yerinə yetirmədiyi öhdəliyin icrasını güc yolu ilə də olsa təmin edəcək. Əks halda, 10 noyabr tarixli razılaşmanın 4-cü bəndinin təmin edilməsi prosesi də uzanacaq. Bununla da hətta danışıqlar prosesi uzana bilər, hansı ki, Ermənistanın da istəyi elə budur.

Bakının öz strategiyası var, hansısa müdaxilələr yersizdir və orada heç bir separatçı müdaxilələrə və psevdo-liderlərə yer yoxdur. Gələcəkdə yerli əhali ilə təmaslar yenə davam etdiriləcək, bu istiqamətdə işlər intensivləşdiriləcək. Bununla belə Azərbaycan hərhansı təxribatın qarşısını almağa hazırdır. Erməni separatçılarının və revanşistlərinin bütün illüziyaları yalnız elə illüziya olaraq qala bilər. Eyni zamanda dövlətimiz dəfələrlə bəyan edib ki, Qarabağın etnik ermənilərinin ölkəmizdə yaşamaq hüququ var və Azərbaycan dövləti onların hüquqlarını təmin etməyə hazırdır. Başqa xülyalara düşmələri, məsələn, status barədə arzuları və buna oxşar mənasız ideyaları isə yersizdir və baş tutan deyil.



Münasibətlərin normallaşması üçün Azərbaycanın təklif etdiyi beş əsas prinsipdə Ermənistan üçün qəbuledilməz heç nə yoxdur. Buna baxmayaraq, rəsmi İrəvan bu zamana qədər əldə olunmuş razılaşmalardan imtina edir. Əlbəttə, Azərbaycan XİN rəhbərinin də dediyi kimi, bu, pis tendensiyadır, hansı ki, danışıqlar prosesinə mənfi təsir göstərir. Amma bütün bunlar Azərbaycana, rəsmi Bakının strategiyasına təsir göstərə bilməz. Əvvəla ona görə ki, Azərbaycan müstəqil, suveren dövlətdir, Ermənistan kimi asılı ölkə deyil və qərarlarını da özü verir. Digər tərəfdən də ölkəmiz istənilən halda milli maraqlarımızdan çıxış edib, bundan sonra da milli maraqlar irəli sürüləcək. Həmin maraqlara da toxunulduğu halda və anda da dərhal reaksiya verilib və veriləcək.

***İnam Hacıyev***

# “Şuşa ili” tarixin yaddaşında necə qaldı?

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevin yenilməz qətiyyəti, dəmir iradəsi, yeritdiyi güclü daxili və xarici siyasəti, qəbul etdiyi qərarlar, atdığı addımlar, sərgilədiyi diplomatik gedişlər, qazandığımız qələbəni Zəfərimizi şərtləndirən başlıca amillər oldu. Beynəlxalq tədbirlərdə Azərbaycanın haqq sözünü ifadə edərək, Birləşmiş Millətlər Təşkilatının Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını nəzərdə tutan məlum qətnamələrinin tələbləri yerinə yetirilmədiyini dəfələrlə bildirmişdi. Münaqişənin sülh yolu ilə həll edilmədiyi halda, hərb yolu ilə torpaqlarımız işğaldan azad olunmalı idi. Cənab Prezidentin rəhbərliyi ilə Azərbaycanın iqtisadiyyatı inkişaf etdirilir, ordumuz möhkəmləndirilir, ən müasir silahlar və texnikalar alınır, əsgər və zabitlərimiz dünyanın qabaqcıl ölkələrinə ezam edilir, ən müasir silahlardan istifadə etmək vərdişlərinə sahib olurdular. Erməni silahlı qüvvələri 27 sentyabr 2020-ci ildə yeni hərbi təxribatlara başlayanda cavab olaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın tam Qələbəsi ilə nəticələndi. Bu Qələbə xalqımızın üzərindən məğlub, torpaqları işğal altında qalan, qaçqın və köçkün sözünü götürdü.

## ”BİZ ŞUŞAYA QAYITMIŞIQ!”

”Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!” Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciəti zamanı səsləndirdiyi bu fikirlər və xalqımıza bu müjdənin verilməsi Azərbaycanın tarixinə açılan yeni səhifələrdən oldu. ”İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox”, - deyə Cənab Prezident bildirib. Artıq biz Şuşaya qayıtmışıq. Alınmaz qala, Qarabağın tacı sayılan Şuşanın tarixi yaddaşı əsrlərin sorağıdır. Daşlaşmış yaddaşda tariximiz var, keçmişimiz, mədəniyyətimiz var. Tarixi-mədəni əhəmiyyət kəsb edən Şuşanın bu gün əvvəlki görkəminin özünə qaytarması, eləcə də dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi üçün sürətli işlər həyata keçirilir. Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, işğaldan azad olunan Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradılır. Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhəri ölkənin Mədəniyyət paytaxtı elan edildi. Prezident İlham Əliyevin Şuşanı rəsmən Azərbaycanın Mədəniyyət Paytaxtı elan etməsi bu qədim şəhərin özəlliklərindən qaynaqlanır. Şuşa azadlığının ilk dövrünə mədəniyyət paytaxtı kimi qədəm qoydu. Şübhə yoxdur ki, Şuşa çox yaxın illərdə nəinki Azərbaycanın, dünyanın mədəniyyət mərkəzlərindən birinə çevriləcəkdir. Qısa bir zamanda Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ermənilər tərəfindən güllələnmiş büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyuldu. Eyni zamanda, dövlət başçımızın göstərişi ilə Şuşada vaxtilə keçirilən ”Xarıbülbül” festivalı bərpa olundu. Bu festival şəhidlərimizin əziz xatirəsinə həsr edildi.

## ŞUŞANIN BƏRPASINI SÜRƏTLƏNDİRMƏK QƏRARI




2022-ci il dövlət başçısı tərəfindən ”Şuşa ili” elan olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bildirdiyi kimi ”Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasının sürətləndirmək məqsədilə Mən yeni ili ”Şuşa İli” elan edirəm”.Zəfər yolu kimi dəyərləndirilən Füzuli-Şuşa yolunun Qarabağın tacına rahat gediş-gəlişin təmin olunması üçün Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi də bu nadir şəhərin hər bir azərbaycanlı üçün önəmini nümayiş etdirir. Şuşa 28 il əsarətdə qalsa da əyilmədi, milli qürurumuzu, kimliyimizi qorudu. Şuşanı erməniləşdirməyə çalışan düşmən illərlə cəhdlər göstərsə də, bunun mümkünsüzlüyünün şahidi oldu. Çünki danışan, erməni vəhşiliyinə şahidlik edən Şuşanın hər daşı, qayası, tarixi oldu. Tarixi və dini abidələri dağıtmaqla, izləri silməyə cəhd etməklə sahibi olmadıqları torpaqların onlara məxsusluğunu sübut etməyə çalışan ermənilər hər zaman fakt qarşısında aciz qaldılar və 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu düşmənə tarix boyu unuda bilməyəcək dərsi verdi.

## QARABAĞIN İNCİSİ ŞUŞA ŞƏHƏRİNƏ DÜNYA AZƏRBAYCANLILARI TOPLAŞDI

Şuşada yeni bir həyat, qaynar dövr yaşanır. Dövlət başçımızın Şuşa şəhərinə etdiyi səfərlərin hər birində ya yeni infrastruktur layihələrinin təməli qoyulub, ya da yeniləri açılıb. Bəs yola salacağımız il Şuşa ili Şuşanın tarixində nə ilə yadda qalacaq? İlk olaraq vurğulayaq ki, 22 aprel 2022-ci il tarixində Şuşada Dünya Azərbaycanlılarının V Qurultayı keçirildi. Bu Qurultaya Zəfər adı verildi. Həmin adın verilməsi heç də təsadüfi deyil, müharibədə qazandığımız tarixi zəfərə əsasən Zəfər Qurultayı adlandırıldı. ”Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər Qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır”, - deyə Cənab Prezident bildirmişdir.Zəfər Qurultayında 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonaqlar iştirak etdilər. İllər sonra ilk dəfə olaraq məhz Qarabağın Şuşa şəhərinə dünya azərbaycanlıları toplaşmış oldular.Diaspor Gənclərinin III Yay Düşərgəsinin iştirakçıları Şuşada oldular. Dünyanın müxtəlif ölkələrində yaşayan gənclərimiz və Azərbaycana dost münasibəti bəsləyən xalqların nümayəndələri yol boyunca erməni silahlı birləşmələrinin Qarabağda törətdikləri vandalizm aktlarının, eləcə də hazırda azad edilmiş torpaqlarımızda həyata keçirilən tikinti-quruculuq işlərinin şahidinə çevrildilər. Qeyd edək ki, layihə Diasporla İş üzrə Dövlət Komitəsinin və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə ”Şuşa İli” çərçivəsində həyata keçirildi. Gənclər tarixi Zəfərimizin Şuşa təntənəsinin şahidi olmaqla yanaşı, Azərbaycanla bağlarını daha da möhkəmləndirmək, ölkəmizi uğurla təmsil etmək, şəbəkələşmək, yeni dostlar qazanmaq imkanı əldə etdilər.



## MÜHARİBƏ CİNAYƏTLƏRİ MƏDƏNİ İRSƏ QARŞI

”Şuşa İli”ndə həyata keçirilən tədbirlərdə Şuşanın tarixinə, arxeologiyasına, mədəni, ədəbi və ictimai mühitinə diqqət çəkildi.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə keçirilən ”Müharibə Cinayətləri mədəni irsə qarşı: Qarabağ münaqişəsinin tarixi kontekstində” adlı XI Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları Ermənistanın işğalından azad olunmuş Şuşa şəhərində səfərdə olaraq Şuşada Bülbülün ev-muzeyi, Molla Pənah Vaqifin Məqbərəsi, Yuxarı Gövhər Ağa məscidi, Aşağı Gövhər Ağa məscidi, Qazançı kilsəsi, Şuşa qalası və Cıdır düzü ilə tanış oldular.

Azərbaycanın Fransadakı səfirliyinin Paris şəhərindəki Mədəniyyət mərkəzində ”Şuşa İli” çərçivəsində ”Erməni separatistləri tərəfindən dağıdılmış Qarabağ xristian kilsələri” adlı sənədli filminin təqdimatı keçirildi. Bu film erməni separatistlərinin xristian kilsələrini necə dağıtdığını əyani şəkildə əks etdirdi. CBC televiziyasının kollektivi ilə birlikdə hazırlanmış filmdə Azərbaycanın Xocavənd rayonunda 100 il əvvəl tikilmiş pravoslav kilsəsinin tarixi və erməni separatistləri tərəfindən yararsız hala salındığı göstərilir.

## QARDAŞLIĞIMIZI VƏ BİRLİYİMİZİ GÖSTƏRƏN LAYİHƏLƏR

28 ildən sonra Ermənistan işğalından azad olunan Azərbaycan mədəniyyətinin paytaxtı Şuşada Azərbaycan və Özbəkistan şairlərinin iştirakı ilə ”Məclisi Fəramuşan” şairlər məclisi keçirildi. Hər iki ölkənin mədəniyyət, ədəbiyyat nümayəndələrinin tarixi Şuşa şəhərində bir araya gəlməsi, dünyaya böyük mədəniyyətimiz, sənətimiz, qardaşlığımız və birliyimizi göstərmək və ədəbiyyat sahəsində gözəl əməkdaşlıq platformasını ortaya qoyması təqdirəlayiq haldır.

Türkiyənin İzmir şəhərində Ege Universitesi Dövlət Türk Musiqi Konservatoriyasında Azərbaycan Dövlət Akademik Filarmoniyasının ”Gənclərə dəstək” layihəsi çərçivəsində görkəmli bəstəkar Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş konsert keçirildi. Konsertdə dahi bəstəkar Fikrət Əmirovun əsərləri səsləndirilib.Əlbəttə ki, Azərbaycanın musiqi beşiyi olan Şuşa Seyid və Xan Şuşinskilər, Bülbül, Üzeyir Hacıbəyli kimi məşhur bəstəkar və xanəndələr yetişdirib. Azərbaycan xalq musiqisinin inkişafında və formalaşmasında Şuşa şəhərində yetişən xanəndə və musiqişünasların müstəsna xidmətləri olub. Qarabağ xanəndələri muğam sənətini daha da inkişaf etdirib, onu daha da zənginləşdiriblər. Şuşanın klassik xanəndələri bütün Qafqazda, Mərkəzi Asiyada, Yaxın və Orta Şərq ölkələrində məşhur olan böyük və möhtəşəm muğam ifaçılığı məktəbi yaradıblar. Şuşa sənətkarlarının yaratdıqları musiqi məktəbləri xanəndəlik və vokal sənətinin inkişafına böyük töhfələr verib.Daha sonra İstanbulda ”Anadoludan Azərbaycana bir nəfəs - 2022 Şuşa İli” adlı konsert təşkil edildi. Konsert proqramından əvvəl Azərbaycanın 44 günlük Vətən müharibəsi və bu müharibə nəticəsində əldə olunan şanlı Zəfərimizi özündə əks etdirən videoçarx nümayiş olundu.

Bütün bu və ya digər tədbirlərlə yanaşı, ölkəmizdə də ”Şuşa ili” çərçivəsində silsilə tədbirlər keçirildi.

***Nəzakət ƏLƏDDİNQIZI***

SİYASİ ARAŞDIRMA+ÖZƏL

# Avropa Parlamentində korrupsiya işi - erməni izində yeni təfərrüatlar!

*Daha iki ölkənin adı çəkilir: yaxınlarda açıqlanacaq*







**Avropa Parlamentində ifşa olunan korrupsiya faktı get-gedə növbəti və daha geniş məcralara doğru yönəlməkdədir. Bundan əvvəl sübuta yetirilmişdi ki, korrupsiya faktında erməni izi var. Daha dəqiq desək, bu iz bilavasitə Belçika polisi tərəfindən həbs edilmiş avroparlamentin sədr müavini, əslən yunan olan Yeva Kaylinin Yunanıstanda yaşayan və almaz milyarderi kimi tanınan erməni iş adamı Kaspar Karapetyanla sıx əlaqələrinə qədər gətirib-çıxarıb. SİA dekabrın 20-də mövzu ilə bağlı geniş təfərrüatlara varmışdı:**

https://sia.az/az/news/politics/1009815.html

Lakin sözügedən korrupsiya qalmaqalının növbəti tərəfləri də gün işığına çıxmağa başlayıb. Xatırladaq ki, Avropa Parlamentinin tarixinə qara və silinməz ləkə vuran bu olay dekabrın 9-da Brüsseldə başlanmışdı və beş nəfər şəxsin həbsi ilə nəticələnmişdi. Məsələ ondadır ki, etibarlı və kifayət qədər məlumatlı mənbələrə istinad edən Azfront teleqram kanalının yaydığı daha bir məlumat da şok doğurur. Ukraynanın diplomatik dairələrində fəaliyyət göstərən məlumatlı mənbəyə görə, bəlli olub ki, Yeva Kayli daha iki dövlət nümayəndələrindən iri məbləğdə rüşvət alıb. Bu haqda dekabrın 19-da məlumat verilib.

Digər tərəfdən, dekabrın 16-17-də Belçikanın "Brussels Morning" və Fransanın "Le Monde" nəşrləri elan etmişdilər ki, korrupsiya qalmaqalında Mərakeşin də rəsmi şəxslərinin adları yer ala bilər. Bu baxımdan, ukraynalı mənbə istisna etməyib ki, yaxın günlərdə sözügedən iki dövlətin adları geniş ictimai rəyə çatdırılacaq.

Bu arada onu da xatırlatmaq yerinə düşərdi ki, Yunanıstanın "Mega TV"nin məlumatına görə, aparılan istintaq araşdırmalarına görə, şübhəlilər arasında nə az, nə çox - düz 60 nəfər avroparlament deputatlarının adları hallanır!

Həmçinin, Avropa Parlamentinin həbs olunmuş sədr müavini Yeva Kayli korrupsiya işində qiymətləri müəyyən edən və kassir rolunu oynayan fərd olaraq fəaliyyət göstərib. Onun əldə edilən qanunsuz gəlirləri avroparlamentin digər korrupsioner deputatları. Deputat köməkçiləri və məsləhətçiləri arasında bölüşdürdüyü bildirilir. Bütün bunlar öz yerində, amma Kaylinin əsas olaraq erməni lobbisi ilə sıx iş birliyində olması da diqqət mərkəzində qalmaqdadır. Bundan əvvəlki məlumatımızda da qeyd etmişdik ki, Yeva Kayli həbsinə qədər Avropa Parlamentinin Avropa İttifaqı-Ermənistan dostluq qrupunun üzvü olub. Həmin qrup isə Ədalət və Demokratiya uğrunda Ümumavropa Erməni Federasiyası (EAFJD) təşkilatı ilə sıx bağlıdır. Bu təşkilatın prezidenti isə ermənilərin "almaz imperatoru" adlandırdıqları milyarder Kaspar Karapetyandır.

Daha bir məqamı da xatırladaq ki, Kayli müxtəlif dövrlərdə və xüsusilə Karapetyanın arzusu ilə ondan aldığı iri məbləğdəki rüşvətlər və bahalı hədiyyələr qarşılığında avrodeputatların qrup halında imzaladıqları və "Azərbaycanın Ermənistana qarşı aqressiya törətməsi" ittihamını əks etdirən bəyanatının yayılmasının əsas təşəbbüskarı kimi tanınıb.

Son olaraq xatırladaq ki, 2022-ci ilin 4 may tarixində Yeva Kayli Brüsseldə Ermənistan parlamentinin radikal "Daşnaksyutun" partiyasının deputatı Xaçaturyanla görüşüb. Bu görüşdən əvvəl isə onun Kaspar Karapetyanla görüşü baş tutub. Kaspar Karapetyan isə yaxın dostu və siyasi həmfikri olan daşnakçı deputat Xaçaturyanın Brüsselə səfərini maliyyələşdirib, tez-tez Avropa ölkələrinə gəlməsinə şəraitlər yaradıb.

O da məlum olub ki, EAFJD təşkilatının rəhbəri, milyarder Karapetyan on illər boyunca Avropa Parlamentinin bir çox deputatlarının yalnız Ermənistana deyil, eləcə də Qarabağa qanunsuz səfərlərini təşkil edib. Onun xüsusilə, "Daşnaksyutun" partiyasının təmsilçiləri ilə mütəmadi görüşlər keçirməsi, habelə onların radikal iş üslublarını dəstəkləyib. Karapetyanın əsasən adıçəkilən partiyanın beynəlxalq əlaqələr katibliyinin rəhbəri Manoyanla sıx əlaqələri mövcud olub. Bu kimi görüşlərdə erməni lobbisinin dəstəyini qazanmaqdan ötrü Yeva Kaylinin sıx şəkildə Avropa ölkələrində fəaliyyət göstərən erməni lobbi mərkəzləri ilə mütəmadi məsləhətləşmələr apardığı da məlumatlar sırasındadır.

***Rövşən RƏSULOV***



## "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır"

**"24 dekabr tarixində Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının ziyalıları ilə görüş keçirdi və gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar deyə bildirdi. Necə ki, bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda, uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişdilər". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Ceyhun Məmmədov bildirib.**

Onun sözlərinə görə, onları oraya getməyə vadar edən torpaq həsrəti və Vətən sevgisidir: "Cənab Prezident 11 il öncə öz ad günündə Ağcabədidə məcburi köçkünlərlə bir yerdə olarkən demişdir: "Gün gələcək, siz məni öz doğma diyarınızda qəbul edəcəksiniz, mən sizin diyarınıza qonaq gələcəyəm" - və o gün gəldi. Ona görə də Qərbi azərbaycanlılar da heç vaxt inamı itirməməlidir. Gün gələcək, biz Qərbi Azərbaycanda bu günü xatırlayacağıq.

Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. Vaxtilə türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsi Azərbaycandan qoparılıb Ermənistana verilib.

Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, 1920-ci illərdə sovet hakimiyyətinin qərarı ilə heç bir əsas olmadan tarixi diyarımız olan Qərbi Zəngəzurun Ermənistana verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir. Bu, xalqımıza qarşı növbəti düşmənçilik və ədalətsizlik idi. Çünki Zəngəzurun şərqində də, qərbində də Azərbaycan xalqı əsrlər boyu yaşamışdır və indiki Ermənistan ərazisində olan Qərbi Zəngəzurun bütün toponimləri, bütün kəndlərin milli tərkibi Azərbaycan xalqına məxsus idi.

Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə köçürülməyə məruz qalmışdırlar. Vaxt gələcək onların hüquqları bərpa ediləcək və onlar öz doğma torpaqlarına qayıdacaqlar. Əsas məsələ ondadır ki, inamımızı itirmirik və Ali Baş Komandanımız İlham Əliyevin yürütdüyü siyasət nəticəsində buna nail olacağımıza əminik. Tarixi Zəfəri qazanmış xalq kimi biz dünya miqyasında tamamilə yeni bir vəziyyət yaratdıq və İnanırıq ki, Qərbi Azərbaycan İcması da hüquqi müstəvidə məqsədyönlü şəkildə lazımi tədbirləri görəcək və qayıdış istəklərini bizə göstərəcəklər".

***Səbinə Hüseynli***

# Küçə heyvanlarına qarşı işgəncələrin qarşısı necə alınmalı?





**Bir çox heyvan həyatını könülsüz olaraq küçədə keçirir. Şəhərin müxtəlif yerlərindəki xüsusilə pişiklər və köpəklər çətinliklərlə mübarizə aparmalı olurlar. Bəzi insanların isə sahibsiz heyvanlara qarşı aqressiyası bitib tükənmir. Demək olar ki, hər gün sosial mediada sahibsiz heyvanların amansızcasına öldürülməsi və ya onlara ağır işgəncələrin verilməsinə dair görüntülərlə qarşılaşırıq. Əlbəttə, bu hal istər sosial şəbəkələrdə, istər mətbuatda, istərsə də cəmiyyətdə ciddi qınaq predmetinə çevrilir. Küçə heyvanlarını bu kimi təhlükələrdən necə qorumalıyıq?**

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Dünya Heyvanları Mühafizə Cəmiyyətinin açıqlamasına görə heyvan sığınacaqları ildə təxminən 100.000 dollara başa gəlir. Dünyada ən böyük və məşhur sığınacaqlardan biri Riqadakı "Sahibsiz İtlər Ölkəsi"dir. Bir çox ölkələrdə evsiz heyvanlara qulluq etməklə məşğul olan agentliklər mövcuddur. Məsələn, Çexiya kimi dövlətin vətəndaşları yiyəsiz it, pişik görəndə evsiz heyvanlar üçün xidmətdə olan "Qaynar Xətt"ə zəng edirlər. Əgər onlardan cavab yoxdursa, itə yeni sahib tapmaq üçün polis saytlarında fotoşəkillər yerləşdirilir.

Dünyada, eləcə də Azərbaycanda küçə heyvanları haqqında yerli icra hakimlərinin səlahiyyətləri var ki yəni sahibsiz heyvanları xüsusi sığınacaqlara yerləşdirsinlər və həmən heyvanlara quduzluğa qarşı xüsusi preparatlar vurdursun. Müəyyən mənada bu işdə də problemlər yaranır. Təbii ki bu kimi hallar təkcə Azərbaycanda deyil, eləcə də dünyada da baş verir. Heyvanlara şiddət ailədaxili tərbiyədən də irəli gəlir. Valideynlər diqqətli olmalıdırlar ki uşaqları gigiyenik tərəfdən qorumaq istəyərkən onlara heyvanları pis murdar bir canlı kimi təbliğ etməsinlər. Tam əksinə onlara heyvanlara qarşı sevgi hissini aşılamalıdırlar. Heyvanlara təhlükə yaratmasan onlarda insanlara toxunmazlar. Valideynlər uşaqları heyvanlara müdafiə etməyi aşılamalıdırlar ki uşaqlarda yetişkin olduqda nəinki heyvanları eləcə də köməksizlərə müdafiə duyğusu güclənsin. Beləcə də tədricən heyvana zorakılıq halları azalacaq və mərhəmət duyğusunun təməli bu davranışlarla qoyulacaq.

Bir çox heyvanlar şəhərdəki sıxlıq səbəbindən hər şeydən qorxurlar. Onların üzərinə gələn nəqliyyat vasitələri, onlara qarşı pis rəftar edən insanlar və s. Sahibsiz heyvanların ən az su və yemək qədər sevgi və məhəbbətə ehtiyacları var. Bu reallığı uşaqlara erkən yaşlarından aşılamaqla, böyüdükdə yaxşı heyvansevər bir fərd olmalarını təmin etmək lazımdır.

"Canlı Aləmin Mühafizəsi" İctimai Birliyin müavini Mənsurə Rəsulzadə: "Mütəmadi olaraq nəzarət olmadığı üçün küçə heyvanlarına qarşı daim işgəncələr olunur. Doğrudur, onlara şiddət göstərənlərə qarşı tədbirlər görülür, amma həps cəzası yoxdur. Heyvanlara şiddət göstərən, onlara zərər verəcək nələrisə edən, öldürən insanları 500-1000 manat cərimə gözləyir. Qeyd olunan cərimələrində yerinə yetirib-yetirilmədiyi məlum deyil. Əslində heyvanlara qarşı belə amansız işgəncələr verənlərə daha ağır cəzalar tətbiq etməlidirlər ki, daima belə hallarla rastlaşmayaq. Bu işgəncələr təkcə küçə heyvanlara qarşı yox, eyni zamanda "Qırmızı kitab"a düşən canlılara da tətbiq edilir. Hazırda ov alveri çox yayılıb, pulu götürüb ov edirlərlərsə, bu təbiətə həm də cəmiyyətə qarşı cinayətdir. Şikayətlər daim olur. Evdə heyvan saxlayan insanlar var ki, bəslədikləri heyvanları küçəyə çıxardırlar. Küçədəki heyvanlar instentiv olaraq onlara hücumlar edir. İnsanların şikayətləri əsasında həmişə bir şey durur: "Bunlara da bir çarə qılın". Yəni onlar daha çox öz təhlükəsizliklərini düşünərək bunu tələb edirlər. Həm heyvanların əziyyət çəkməməsi, həm də insanların rahat yaşamaları üçün onların qayğısına qalmalıyıq. Bəzi qurumlar var ki, gəlib onları özləri məhv edirlər. Öncələr bu işlə Dövlət Baytarlıq Xidməti məşğul olurdu. Avropa Konvensiyasına qoşulmuşuq və bu konvensiyanın tələblərindən irəli gələn işləri həyata keçirmək üçün qurumlar məşğul olmalıdır.



Baytarıq xidməti tək Bakıda yox, bütün rayonlarda mövcuddur. Başda gələn layihə bütün bölgələrə aid olunmalıdır. Layihənin içərsində tələblər, büdcə, iş ştatı, ərazilər, saxlama məntəqələri müəyyən olunmalıdır. Həmçinin müəyyən qurumlar da öz üzərinə düşən öhdəlikləri insanlıq naminə, cəmiyyət naminə həyata keçirməlidir. 2007-ci il mayın 30-dan konvensiyaya qoşulduqdan bir ay sonra Prezidentin imzası ilə qərar qəbul olundu. Növbədə gələn işləri baytarlıq həyata keçirməlidir. Ümumi olaraq onların yerləşdirilməsi, sağlamlıq və qida ilə təmin olunması üçün bölgələrdə baytarlıq klinikaları açılmalı, könüllülərin də iştirak edə biləcəyi müəyyən layihələr həyata keçirilməlidir".




***Havar Şəfiyeva***

---



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## PAŞİNYAN YENƏ QUDURUB!

**Ermənistan respublikasının hökuməti "artsaxa" daha 4 milyard dram (10 milyon dollar civarında) maliyyə vəsaiti ayıracaq. "2022-ci ildə Ermənistanın büdcəsindən qarşılıqsız yardım məqsədi ilə maliyyə vəsaiti ayrılıb. Söhbət 164 milyard dramdan gedir. Bundan əlavə, qəbul ediləcək digər qərara görə, həmin göstərici 168 milyard drama çatacaq. Həmin məbləğ hökumət nümayəndələri tərəfindən deyil, çalışan və yaradan minlərlə insan tərəfindən formalaşdırılıb", deyə Ermənistanın baş naziri Nikol Paşinyan bildirib.**

Bəli, heç də yanılmadınız, bunu məhz sülh prosesini müxtəlif bəhanələrlə uzadan, əldə olunmuş razılaşma və bəyanatlardakı tələbləri icra etməyən və həmin vasitə ilə Azərbaycanın ərazilərinə iddialarını qüvvədə saxlayan düşmən ölkənin baş naziri Nikol Paşinyan deyib. Deyibsə, demək ki, iki il əvvəl "Qarabağ Ermənistandır və nöqtə" ifadəsini işlədən Paşinyan demək ki, yenidən qudurub. Adətən quduran iti bir dirəyə bağlayıb onu əhliləşdirirlər, yox, əgər əhliləşmirsə...

Məsələ ondadır ki, Paşinyanın bu kimi addımları regiona yeni müharibə qoxusunu yaymaqdadır. Belə olmasa idi onun başqa bir ölkənin ərazisinə, özü də qondarma və cinayətkar quruma dövlət büdcəsindən maliyyə vəsaitləri ayırması faktları da mövcud olmazdı. Misal üçün, qeyd edilən qərara qədər, yəni 2022-ci il üçün Ermənistanın dövlət büdcəsindən Qarabağın separatçı-cinayətkar rejiminə 411 milyon dollar pul ayrılıb. Yuxarıda qeyd edilən məbləğlər isə bura aid deyil. Yəni əlavə yardımdır. Ona görə də hələlik 411 milyon dollar üzərində danışacağıq.

Baxın, digər ölkələr qarşısında ağlayan, sızlayan, özünü məzlum və əzabkeş kimi təqdim edən, diləndikcə dilənən bir dövlətin öz boyundan dəfələrlə (!) hündürə tullanması cəhdlərinə baxın və nəticə çıxarın. Məsələn, bütün bunlardan sonra bir daha məlum olur ki, Ermənistan aqressiv ölkədir və aqressivliyini başqa ölkənin - Azərbaycan Respublikasının ərazilərində qanunsuz silahlı birləşmələrini saxlayır!

İndi isə gəlin həmin xərclərin bəzi hesablamalarını aparaq və digər nəticələri üzə çıxaraq. Misal üüçün, belə bir sual edək: yaxşı, bəs erməni vergi ödəyicilərinin pulları haralara xərclənir?!

Misal 1:tutaq ki, separatçı-cinayətkar rejimin və Ermənistan hakimiyyətinin iddialarına görə Qarabağda "120 000" erməni yaşayır. 411 milyon vəsaiti bölürük 120 000-nə və bu hesablamaya görə adambaşına 3425 dollar vəsait düşür!

Misal 2: indi isə Rusiya mənbələrinə istinad yaxud, güman edək ki, Qarabağda "54 000" erməni yaşayır və 411 milyonu bölürük adambaşına - nəticə: 7611 dollar!

Misal 3: sonda dəqiq və qərəzsiz hesablamalara gələk. Azərbaycanın məlumatına görə, Qarabağda 25-30 min erməni yaşayır. 411 milyonu 30 000-nə böləndə hər adama 13700 dollar pul düşür!

Göründüyü kimi, Qarabağdakı ermənilər reallığa qalanda Ermənistandakı ermənilərdən qat-qat yaxşı yaşamalıdırlar. Amma yaşayırlarmı? Əlbəttə ki, yox! Bu vəsaitlər bir tərəfdən separatçı cinayətkar rejimin ciblərinə, digər tərəfdən isə diqqət: QANUNSUZ ERMƏNİ HƏRBİ BİRLƏŞMƏLƏRİNƏ xərclənir!!!

P.S. Bəli, Nikol Paşinyan qudurmağına qudurub, amma iki ildir ki, əhliləşmir və əhliləşmirsə, deməli quduzluğa qarşı təcili veterinar üsullu tədbirlər görülməlidir - həm ona, həm də Qarabağdakı quldurlara qarşı!!!

# Şəfa əvəzinə bəla

## Saxta dərmanlar insanların sağlamlığı və milli genefond üçün ən ciddi təhlükə mənbəyidir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*



***Tibb elminin inkişafı ilə paralel olaraq, xəstəliklərin sıyahısı da genişlənir. Bu səbəbdən də hər il dərman preparatlarının həddən artıq uzun olan siyahısına onlarla yeni vasitələr daxil olur. İnsanlar xəstələndiyi və ya yaralandığı zaman yeganə ümid yeri bu dərmanlar olur. Amma təəssüflər olsun ki, bu ümidlər bir çox hallarda boşa çıxır. Səbəb dərmanların müəyyən hissəsinin saxta və ya keyfiyyətiz olmasıdır. Ümumdünya Səhiyyə Təşkilatı dünyada satılan dərman vasitələrinin ən azı 25 fazinin saxta olduğunu deyir. Məlumatda o da göstərilir ki, saxta dərmanlar əsasən inkişaf etməkdə olan ölkələrdə satılır.***

Hazırda asan və gəlirli qanunsuz biznes sahəsinə çevrilən saxta dərman istehsalı bütün dünyada ən inkişaf edən sahələrdən birinə çevrilib. Bu biznesin inkişafına stimul yaradan əsas səbəblərdən biri də budur ki, başqa mallardan fərqli olaraq tibbi preparatların tərkibini yoxlamaq üçün istehlakçıların heç bir vasitəsi yoxdur və hansı dərmanın keyfiyyətsiz və ya saxta olduğunu müəyyənləşdirmək olduqca çətin məsələdir. Üstəlik bir çox ölkələrdə rüşvət müqabilində istənilən preparatın idxalı, istehsalı və satışı üçün rahat şərait yaradılır, hətta bəzən saxta dərman vasitələrinə lazımi sənədlər də düzəltmək olur.

İşbazlar insanları saxta həblər almağa şirnikləndirmək üçün hər cür vasitəyə əl atırlar. Onların istehsal etdiyi "dərmanlar" həqiqi həblərdən fərqlənmir. Ağıllı işbazlar dərmanların zahirən orjinaldan fərqlənməməsi üçün onları yüksək peşəkarlıqla saxtalaşdırırlar. Hətta bir çox halda həblərin saxtalığı ancaq laborator analizlər vasitəsilə müəyyən edilə bilir. Belə həblər insanlara ən yaxşı halda heç bir müsbət təsir göstərmir, əksinə başqa problemlər yaradır, pis halda isə öldürə bilər.

Dünya üzrə saxta dərmanların illik dövriyyəsi 50 milyard dollar təşkil edir. Beynəlxalq ekspertlərin hesablamalarına görə, bir sıra ölkələrdə saxta dərmanlar ümumi dərman dövriyyəsinin 10 %-ni, bəzilərində isə, yarıdan çoxunu təşkil edir.



Saxta dərmanların törətdiyi təhlükə ilk baxışdan görünmür. Çünki, belə "dərmanlar" insan orqanizmini tədricən daxildən dağıdır. Dərmanların saxtalaşdırılması hər il dünyada 1 milyondan artıq adamın ölümünə səbəb olur. Heç də təəccüblü deyil ki, saxta dərmanların 60%-i inkişaf etmiş dövlətlərdə istehsal olunur, amma inkişaf etməkdə olan ölkələrin bazarlarında satılır.

Bəzən dərman qabında tamam başqa şey, məsələn, ən azı təsirsiz bir maddə satırlar. Bir çox hallarda isə, həmin maddə sağlamlıq üçün ciddi təhlükə yaradır. Bu isə alıcının cibinə ziyan etdiyi kimi, xəstənin də orqanizminə zərər edir, ən azı onun düçar olduğu xəstəliyini sağaltmır, üstəlik başqa xəstəliklərə düçar edir.



Fırıldaqçılar hətta kərpic tozundan da saxta həblər hazırlayır, mürəkkəblə rəngləyir, laklayır və insan orqanizmi üçün zərərli digər məhsullardan istifadə edirlər. Belə saxtalaşdırmanı həyata keçirənlər çox bacarıqlı insanlardır. Təəssüf ki, onlar bu bacarıqlarından bilə-bilə insanları öldürmək üçün istifadə edirlər.

Saxta dərmanlar təkcə geridə qalmış ölkələrdə yox, dünyanın ən inkişaf etmiş ölkələrində də geniş yayılıb. Bu, təsadüfi deyil. Çünki saxta dərman istehsalı və satışında böyük qazanc var. Böyük pul və tələbat olan yerdə isə mütləq istehsalçının istehlakçıdan daha çox pul qoparmaq iştahı və bundan ötrü müxtəlif fırıldaqlara əl atmaq imkanı var.

Son vaxtlar Azərbaycanda səhiyyə sistemində bir proses də geniş yayılıb. Bu da ondan ibarətdir ki, diaqnostika mərkəzləri və əczaçı firmalar ayrı-ayrı həkimlərə aylıq maaş verirlər və onlar da öz ortaqlarını daimi müştərilərlə təmin edirlər. Məsələn, qanının ümumi analizi tələb olunan xəstəyə həkimlər bəzən 7, 8, hətta 10 növ üzrə analiz verməyi tövsiyə edirlər və diaqnostika mərkəzində onun yüzlərlə manat xərci çıxır. Halbuki, adi halda (yəni, fırıldaqçı həkimə rast olmadıqda) bu xərc maksimum 20 manat olmalı idi.

Eyni proses dərman satışında da gedir. Həkimlər çox vaxt xəstəyə lazım olmayan bahalı dərmanlar da yazırlar və əczaçıların alveri başdan aşır. Hətta, elə olur ki, hansısa əczaçı firma satışa yeni dərman gətirir və tanış həkimlərilə əlaqə yaradıb onları yeni dərmanın adı və xassələri ilə tanış etdikdən sonra proses başlayır: həkimlər xəstələrə məhz həmin dərmanı yazırlar. Bir çox vətəndaşların dediyinə görə, son vaxtlar xəstələrə yazılan dərmanların çoxu heç bir effekt vermir, hətta bir çox hallarda çox mənfi fəsadlar verir. Eyni dərmanın bizdə qonşu ölkələrdən xeyli baha satıldığına baxmayaraq, tərkibinin zəif olduğu deyilir. Burada əsas səbəblərdən biri də, dərmanların saxlama vaxtına və şəraitinə əməl olunmamasıdır.



Maraqlıdır ki, son vaxtlar adi soyuqdəymədən öskürək qazanmış yüzlərlə insan müxtəlif antibiotiklərdən istifadə etsələr də, heç bir təsirini hiss etmir, xəstəlikdən yalnız təbii vasitəsilə- kürəyə banka qoymaqla, itburnu və zəncəfil dəmləmələri, bal, doşab, sirkə içməklə sağalırlar.

Uzun illərdir ki, dərman şirkətləri mövcud və potensial müştərilərinə qarşı reklam təcavüzünə başlayıblar. Belə firma-şirkətlər televiziya verilişlərinə sponsorluq edir, bəzi media nümayəndələrinə "görüm-baxım" eləməklə gizli və açıq reklamdan gen-bol istifadə edirlər.

Saxta dərman preparatı dövriyyəsinin qarşısını almaq məqsədi ilə müəyyən tədbirlər həyata keçirilsə də, bu sahədə hələ də qanun pozuntuları qalmaqdadır. Odur ki, ölkəyə saxta dərmanların gətirilməsinin qarşısını almaq üçün hökumət tərəfindən ciddi tədbirlər görülməlidir.

Başqa məhsullardan fərqli olaraq, saxta dərmanları ayırd etmək çətin məsələdir. Bununla belə, bu mümkündür. Bir qayda olaraq, saxtalaşdırılmış dərman preparatları mötəbər olmayan göstəricilərlə markalaşdırılır. Hətta bəzən quru üzərindəki yazılarda belə səhvlər olur. Bu, artıq istehsalçının qeyri-leqal fəaliyyət göstərməsinə şəhadət verir. Ümumilikdə isə saxta dərmanları 5 qrupa bölmək olar.

Birinci qrupa aid edilən dərmanlar tam saxtadır, bunların tərkibində bir qram da müsbət təsir göstərə biləcək maddə yoxdur.

İkinci qrup saxta dərmanların tərkibində az-çox təsiredici maddə olsa da, bunlar da müalicə üçün yararsızdır.

Üçüncü qrupdan olan dərmanlarda təsiredici maddə yarıbayarı olur və bunu istifadə edənlər də sağalıb ayağa qalxmırlar.

Dördüncü qrupda maddələrin tərkibi düzgün olsa da, bu dərmanların istehsalçıları qeyri-leqal olur və preparatların istehsalında zəruri texnologiyadan istifadə edilməsi, həmçinin istehsal normativlərinə riayət edilib-edilmədiyinə heç kəs təminat vermir.

Beşinci qrup isə normal dərmanlardı, sadəcə bunlar ölkəyə qeyri-leqal yolla gətirilir. Burada isə sırf kommersiya marağı güdülür.

Apardığımız araşdırma zamanı məlum oldu ki, bu qədər təbliğat aparılmasına baxmayaraq, əksər dərman alıcıları preparatları alarkən onun holoqramlı olub-olmadığına fikir vermirlər. Hansısa "demoqoq" alıcı "bəs bunun holoqramı niyə yoxdur" deyə soruşanda çox vaxt belə cavab alır: "Holoqram dərmanların üstündə olmur ki... Korobkada olur".

Əslində, holoqram, satılan dərmanların blok qutusunda yox, kiçik qutusunun da üzərində olmalıdır. Bunsuz satılan dərmanların saxta olduğu heç kəsdə şübhə doğurmasın. Hətta, ona da fikir verməli lazımdır ki, holoqramsız dərmanlar daha ucuz olur. Əldə olan məlumatlara görə, saxtakarlar daha çox ağrıkəsici və antibiotikləri saxtalaşdırırlar. Çünki onlara tələbat daha böyükdür.

Hər bir halda dərman alıcıları diqqətli olmalı və şübhəli hallarla qarşılaşdıqda müvafiq orqanlara məlumat verməlidirlər. Aldığınız dərmanları mütləq həkimə də göstərməyiniz lazımdır. Çalışın xəstələnməyin.

***Lalə Mehralı***

ARAŞDIRMA



# Ronaldo villasına işçilər axtarır - ayda 6 min avro maaş...

Futbol üzrə Portuqaliya millisinin kapitanı, futbol ulduzu olan Kriştiano Ronaldo ölkəsindəki villasına işilər axtarır. Qol.az Corriere della Sera" nəşrinə istinadən xəbər verir ki, 37 yaşlı hücumçu bağban, aşbaz və qulluqçu işə götürmək istəyir. Maaş ayda 6 min avro olacaq. Namizədlər Atlantik okeanı sahilində, Kaskaisdə villada işləyəcəklər. Ronaldo oranı 10 milyon avroya alıb.Üç mərtəbəli villanın sahəsi 2720 kvadratmetrdir. Orada bir neçə bağ, açıq hovuz (qapalı hovuza əlavə olaraq), idman zalı, tennis kortu və 20-dən çox avtomobil üçün qaraj var. Villa Portuqaliyada ən bahalı mülk hesab olunur. İşə qəbul olunacaq şəxslər gizlilik müqaviləsi imzalamalıdır. Qeyd edək ki, Ronaldo hazırda azad agentdir. Onun "Əl-Nəsr"ə keçəcəyi iddia olunur.

# Məişət zəminində baş verən mübahisələr niyə cinayətə çevrilir?



"Son zamanlarda məişət zəminində müxtəlif münaqişələr baş verir ki, bunlar müəyyən müddət keçdikdən sonra bəzən cinayət hadisələrinə gətirib çıxarır. Bu münaqişə və mübahisələr məişət zəminində baş verdiyinə görə adətən onların statistikasını tam dolğunluğu ilə ifadə etmək olmur. Çünki bu münaqişələr ailə daxilində, qapalı mühitdə baş verir. Amma cinayətlə sonlanan ailədaxili problemlərlə bağlı hüquq mühafizə orqanları bu sahədə əməliyyatlar aparır. Bu əməliyyatlar nəticəsində həmin münaqişələr artıq rəsmi olaraq qeydiyyata alınır, müəyyən cinayət işləri başlanır və öz göstəriciləri ilə statistikada öz ifadəsini tapmış olur". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Rəşad Əsgərov deyib.

Onun sözlərinə görə, məişət zəminində baş vermiş münaqişələrin cinayətə çevrilməsinin səbəbləri də müxtəlifdir: "Bu kimi hallar xüsusilə, gənc ailələr arasında daha çox üstünlük təşkil edir. Ailədaxili qısqanclıq, ailənin müəyyən qədər tələbatlarının ödənilməməsi, cütlüklərin bir-birinə güzəştə gedə bilməməsi və hətta güzəştə getmək istəməməsi bu münaqişələrə səbəb olur. Bəzi ailələrdə isə bu münaqişələrin yaranmasına üçüncü tərəflərin təsir dinamikasının getdikcə artması da öz töhfəsini verir. Bu mübahisələr ağır zədə yetirmələrinə, fiziki və ya digər formada cinayətlərə gətirib çıxara bilir".

Sosioloq sözlərinə davam edərək qeyd edib ki, bu ailə münaqişələrinin cinayətə çevrilməməsi üçün müxtəlif formatda sosioloqlar, psixoloqlar, ictimai elmin digər sahələrinin nümayəndələri variantlar təklif edirlər: "Ən vacib həll yollarından biri də maarifləndirmə işlərinin aparılmasıdır. İnsanlar nə qədər bilikli, məlumatlı olarsa, onlar münaqişələrdən yayınmağa bir o qədər meyilli olarlar. Amma biz son dövr statistikasında görürük ki, cəmiyyətimizdə bu sahə ilə bağlı nə qədər maarifləndirici verilişlər, roliklər, yazılar və əyani nümunələr göstərilsə də, bu mövzuda dönüş yaratmaq qeyri-mümkündür. Bu baxımdan başqa bir məsələ ortaya çıxır. Ailə qurmazdan öncə cütlüklərin bir-birini yaxşı tanıması üçün geniş şərait yaradılmalıdır. İkinci bir məsələ isə odur ki, ailə qarşılıqlı razılaşma əsasında qurulduğuna görə ailə üzvlərinin bir-birini təsiri altında saxlamaq, bir tərəfin daha basqın olmasından daha çox birgə qərar nəticəsində ailənin idarə olunması yönündə meyillər artırılmalıdır. Digər bir məsələ isə ailə üzvünün şiddətə məruz qaldığı zaman hara müraciət etməsi barədə bütün ailə üzvlərinin məlumatlı olmasıdır. Belə olduqda ailə daxilində baş verən münaqişə zamanı ailə üzvləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə, müvafiq icmalara müraciət edərək münaqişə vəziyyətinin cinayətə çevrilməsinin qarşısını ala bilər. Eyni zamanda, ailə böyükləri də öz təcrübələrinə dayanaraq məsləhətlər verə və cütlüklər arasında yaranmış münaqişələrin sona çatmasında müsbət rol oynaya bilərlər".

*L.Əlizadə*

# Toyunuz mübarək!

**İki sevən gəncin toyudur bu gün,**
**Ceyhunla Elmira murada çatır.**
**Həyatda xoşbəxtlik günüdür ömrün**
**Allah səadətin qapısın açır**
**Onların evinə göydən nur saçır.**
**"Qolden Rinq"dədir əziz toy məclisi**
**Möhtəşəm salonda nəhəng izdiham.**
**Qəlblərə ruh verir musiqi səsi,**
**Məclis əhlinə böyük ehtiram**
**Bəy gəlinə sadiq, əmanət, inam.**



**Dostlar, qohumlar şadyanalıqda,**
**İstəklər çeşidli, arzular bitmir**
**Hamı sevinclidir bu qonaqlıqda.**
**Toy elə gündür ki, yaddaşdan itmir**
**Xoş niyyətlə mübarəkdir toyumuz!!!**

***Ofeliya Mürsəlqızı***
***ADPU-nun sabiq baş müəllimi***

## Saçları bir ayda necə qalınlaşdırmaq olar?



Sürətlə uzanan dolğun saçlara sahib olmağın gözəl bir yolu var. SİA xarici mətbuata istinadən xəbər verir ki, sosial şəbəkələrdə sürətlə populyarlaşan və viral hala gələn bu üsulla saç tellərinizin 1 ay ərzində qalınlaşmağa başladığını görəcəksiniz. Evdə hazırlanmış düyü suyu ilə saç baxımı, Asiya mədəniyyətinin gözəllik baxımında çoxəsrlik tarixi var. Həftədə 2-3 dəfə tətbiq edəcəyiniz xüsusi düyü suyu qarışımı saç dərisinə qulluq edərək saçların kökündən qidalanmasını təmin edir. Bu nişastalı, intensiv qidalandırıcı suda hüceyrə regenerasiyasını sürətləndirən çoxlu antioksidantlar, həmçinin saç tellərinizi daha dolğun edəcək qidalandırıcı elementlər var.

Düyü suyunun tərkibində follikulların zədələnməsini minimuma endirən və saçınızın parlaqlığını, gücünü və uzunluğunu artıran xüsusi bir karbohidrat var. İnositol düyü suyuna südlü görünüş verən bir karbohidratdır. Bəzi tədqiqatlar göstərir ki, inositol saçınızda istifadə edildikdə buruqlarınızı qorumağa və parlaqlıq əlavə etməyə kömək edir.

# Nəqliyyatın ətraf mühitə təsirini azaltmaq üçün hansı tədbirlər görülür?

"Ekoloji təmiz avtomobillərin təşviqi məsələləri ölkəmizdə qəbul edilən dövlət proqramlarında yer alıb". Bu sözləri SİA-ya açıqlamasında Ekologiya və təbii sərvətlər nazirinin müşaviri Rasim Səttarzadə bildirib.

Onun sözlərinə görə, ilk dəfə 2019-cu ildə elektrik mühərrikli avtomobillərin idxalı, bu ilin yanvar ayından etibarən həm də satışı ƏDV-dən azad edilib: "Nazirlər Kabinetinin 11 noyabr 2022-ci il tarixli Qərarı ilə isə elektromobillərin təşviqi ilə bağlı əlavə güzəştlər tətbiq olundu. Elektrik mühərriki ilə işləyən yeni avtomobillər və onların enerji doldurucuları idxal gömrük rüsumundan da azad edildi. Hazırda istehsal tarixi 3 ilə qədər olan və mühərrikin həcmi o qədər də böyük olmayan hibrid avtomobillərin, elektromobillərin, həmçinin enerji doldurucularının idxalının və satışının ƏDV-dən azad olunması, əlavə olaraq elektrik mühərriki ilə işləyən yeni avtomobillərin və onların enerji doldurucularının idxal gömrük rüsumundan azad olunması kimi stimullaşdırıcı tədbirlərin tətbiqi ekoloji təmiz nəqliyyat vasitələrindən istifadənin əlçatanlığını artırır".



R.Səttarzadə sözlərinə davam edərək qeyd edib ki, köhnə avtomobillərin ətraf mühitə mənfi təsirinin olduqca çox olduğunu nəzərə alaraq belə nəqliyyat vasitələrinin idxalının məhdudlaşdırılması üçün artıq ölkəmizdə bir sıra tədbirlər görülür: "İstehsal tarixi 7 ildən artıq olan benzin və dizel mühərrikli minik avtomobillərinə yüksəldici aksiz əmsalının tətbiq olunması məsələnin həllinə bir qədər kömək edəcək. Eyni zamanda, köhnə nəqliyyat vasitələrindən istifadənin mərhələlərlə məhdudlaşdırılması, istismar dövrünü başa vurmuş avtomobillərin utilizasiyası və dövriyyədən çıxarılması son dərəcə vacibdir. Hazırda razılaşdırma mərhələsində olan mexaniki nəqliyyat vasitələrinin utilizasiyası proqramının qəbul olunması nəqliyyat parkının yenilənməsi ilə bərabər köhnə avtomobillərin təkrar xammal kimi emal edilərək yenidən dövriyyəyə qaytarılması vasitəsilə tullantıların idarə olunmasının təkmilləşdirilməsinə də öz töhfəsini verəcək. Tətbiq edilən bu güzəştlər ölkəmizdə ekoloji təmiz avtomobillərə marağın əhəmiyyətli dərəcədə artmasına, eyni zamanda ətraf mühitə, xüsusilə atmosfer havasının keyfiyyətinə müsbət təsir göstərə bilər".

*Ləman*

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**